ETF Working together Learning for life

# AZƏRBAYCANDA MÖVCUD OLAN KVALİFİKASİYA STANDARTLARININ TƏHLİLİ

# Mündəricat


Qısa icmal ... 3

Giriş ... 4

1. Ümumi təhsildə kvalifikasiya standartları və kurikulumlar ... 8

1.1. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları) ... 10

1.2. İbtidai təhsil səviyyəsinin kvalifikasiya standartı və kurikulumları ... 12

1.3. Ümumi orta təhsilinin kvalifikasiya standartı və kurikulumları ... 13

1.4. Tam orta təhsilinin kvalifikasiya standartı və kurikulumları ... 13

1.5. Əsas nəticələr, o cümlədən mövcud kvalifikasiya növləri üzrə diskriptorların AzKÇ tələblərinə cavab vermək üçün necə dəyişdirilməli olduğunun qiymətləndirilməsi ... 13

2. İlk peşə-ixtisas və orta ixtisas təhsilində kvalifiaksiya standartları və kurikulumlar ... 14

2.1. İlk peşə-ixtisas və orta ixtisas təhsili pillələrinin kvalifikasiya standartları və kurikulumları ... 14

2.2. İlk peşə-ixtisas təhsili və orta ixtisas təhsilində peşə standartları ... 22

2.3. Əsas nəticələr, o cümlədən AzKÇ tələblərinə cavab vermək üçün mövcud kvalifikasiya növü diskriptorlarının necə və nə üçün dəyişdirilməli olduğunun qiymətləndirilməsi ... 23

3. Ali təhsildə kvalifikasiya standartları və kurikulumlar ... 25

3.1. Kvalifikasiya standartı və bakalavr kurikulumu ... 26

3.2. Kvalifikasiya standartı və magistr kurikulumu ... 26

3.3. Kvalifikasiya standartı və doktorantura kurikulumu ... 27

3.4. Ali təhsildə peşə standartları ... 27

3.5. Əsas nəticələr, o cümlədən AzKÇ tələblərinə cavab vermək üçün mövcud kvalifikasiya növü diskriptorlarının necə və nə üçün dəyişdirilməli olduğunun qiymətləndirilməsi ... 27

4. Əlavə təhsil sahəsində kvalifiaksiya standartları ... 28

4.1. Əlavə təhsil sahəsində kvalifikasiya standartları ... 28

4.2. Əlavə təhsildə peşə standartları ... 30

4.3. Əsas nəticələr ... 31

Nəticə və tövsiyələr ... 32

İlk peşə-ixtisas təhsili və fasiləsiz təhsildə kvalifikasiya standartları ilə bağlı tövsiyələr ... 34

Kvalifikasiya standartlarının strukturuna müqayisəli yanaşma ilə bağlı tövsiyələr ... 36

Modul tipli kurikulumların hazırlanmasında kvalifikasiya standartlarından istifadə ilə bağlı tövsiyələr ... 36

İstinadlar ... 38

Əlavə 1. Kvalifikasiya standartlarının hazırlanması, yenilənməsi, təsdiq və tətbiq edilməsi sahəsində rol və vəzifələrinin bölgüsü ... 39

Əlavə 2. AzKÇ-nin standartlarla zənginləşdirilməsi üzrə tövsiyələr ... 44

Əlavə 3. 2015-2017-ci illərdə həyata keçirilməli olan tədbirlərlə bağlı tövsiyələr ... 48

# Qısa icmal

Hesabatda formal təhsil sisteminin müxtəlif pillələri üçün mövcud olan kvalifikasiya standartları və kurikulumlar nəzərdən keçirilir və təklif dilən Milli Kvalifikasiya Çərçivəsində (AzKÇ) onların tətbiqi ilə bağlı əsas problem və boşluqların müəyyən edilməsinə cəhd göstərilir. Belə ki, kvalifikasiya standartları və kurikulumların strukturu, məzmunu və AzKÇ ilə uyğunluğu ümumi, ilk peşə -ixtisas təhsili, ali və əlavə təhsil pillələri üzrə təhlil edilir və təkmilləşmə məqsədilə zəruri tövsiyələr təqdim edilir. Təlim nəticələrinin müəyyən edilməsinə və nəticə-əsaslı qiymətləndirmə və sertifikatlaşdırma ilə bağlı mexanizmlərin mövcudluğuna xüsusi diqqət yetirilir. Təhsilin müxtəlif pillələri arasında əlaqələr AzKÇ-nin kvalifikasiyaların sistematikası ilə bağlı tələbləri fonunda təhlil edilir.

1-ci fəsildə ibtidai təhsil, ümumi orta və tam orta təhsil səviyyələri üzrə ümumi təhsil pilləsində kvalifikasiya standartlarının və kurikulumların mövcudluğu nəzərdən keçirilir. Standartlar onların ümumi təhsilin effektiv təşkilinə təsiri baxımından təhlil edilir. Standart və kurikulumların təkmilləşdirilməsi, eləcə də orta təhsilin bütün pillələri üzrə əlaqələrin yaxşılaşdırılması məqsədilə müvafiq tövsiyələr hazırlanmışdır.

2-ci fəsildə ilk peşə və orta ixtisas təhsili üzrə mövcud kvalifikasiya standartları və onların hazırlanması üçün peşə standartlarından istifadə barədə müzakirələr aparılır. Aşağı və yuxarı pillələr üzrə standartlar vasitəsilə kvalifikasiya və kurikulumlar arasında təmin edilən əlaqələr nəzərdən keçirilir və standartların müqayisəli təhlili həyata keçirilir. Mövcud boşluqlar müəyyən olunur və tələb olunan dəyişiklər təklif edilir. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu tərəfindən mövcud peşə standartlarına uyğun hazırlanmış ixtisas sahələri üzrə yeni modul tipli kurikulumların strukturu müxtəlif layihələr çərçivəsində beynəlxalq donor təşkilatların dəstəyi ilə hazırlanmış peşə standartları ilə müqayisə olunur və kurikulumlar üçün təkmilləşdirilmiş strukturun müəyyən edilməsi istiqamətində müvafiq tövsiyələr verilir.

3-cü fəsil ali təhsil pilləsində kvalifikasiyaları təhlil edir. Bakalavr, magistr və doktorantura pillələrində mövcud olan standartlar təhlil olunur və yeni yanaşmaların formalaşdırılması barədə istiqamətlər təklif olunur. Təlim nəticələrinin yeni standartlar üzrə istifadə edilməsi və onların müvafiq AzKÇ təsvirləri ilə uyğunluğu nəzərdən keçilir və AzKÇ tələblərinə cavab vermək üçün mövcud kvalifikasiya növü diskriptorlarının necə dəyişdirilməli olmasına dair tövsiyələr təqdim edilir.

4-cü fəsildə əlavə təhsil və təlim sistemində mövcud kvalifikasiya standartları, eləcə də qeyd edilən təhsil formalarından peşə standartlarından istifadə imkanları nəzərdən keçirilir. Qabaqcıl nümunələr və boşluqlar müəyyən olunur və əsas nəticələr AzKÇ tələblərinə cavab vermək üçün yeni təkliflər formasında ümumiləşdirilir.

Hesabat ilk peşə-ixtisas təhsili və fasiləsiz təhsil sistemində kvalifikasiya standartları ilə bağlı tövsiyələr ilə yekunlaşır. Bu tövsiyələr kvalifikasiyaların hazırlaması və (modul tipli) kurikulumların məlumat ilə təmin edilməsi məqsədilə kvalifikasiya standartlarından necə istifadə edilməsi üzrə sistemli yanaşma ilə bağlıdır.

# Giriş

Keçid dövründə Azərbaycanın təhsil sistemi əhəmiyyətli dəyişiklərə məruz qalmışdır. Belə ki, 2009-cu ildə “Təhsil haqqında” Qanun, 2013-cü ildə isə Təhsilin İnkişafı Strategiyası qəbul olunmuşdur. Ölkədə formal təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində dövlət proqramları həyata keçirilmiş və hazırda da həyata keçirilməkdədir. Təhsilin müxtəlif pillələri üçün 5 ildən az olmayan dövr üçün yeni standartlar təsdiq edilmişdir. Peşə və ali təhsil ixtisasları üçün səriştə əsaslı kurikulumların hazırlanması istiqamətində səylər göstərilmişdir.

Bütün bu dəyişiklər üçün əsas aparıcı qüvvə sürətlə dəyişən əmək bazarı olmuşdur. Keçid dövründə iqtisadi subyektlər bazar iqtisadiyyatının şərtlərinə tez bir zamanda uyğunlaşmışdır ki, eyni sözləri ümumilikdə təhsil sistemi üçün söyləmək mümkün deyildir. Belə ki, formal təhsil sistemindən keçən bütün şəxsləri işlə təmin edən planlı iqtisadiyyatın dağılması fonunda təhsil və təlim müəssisələri, artıq, sürətli dəyişiklərə əvvəlki dövrlər ilə müqayisədə daha çevik şəkildə uyğunlaşmaq çağırışı ilə üzləşmişdir.

Müsbət dəyişiklərə baxmayaraq təkmilləşdirmə üçün hələ çox işlərin görülməsinə ehtiyac vardır. 2011-ci ildən əvvəl Azərbaycanda kvalifikasiyalar sistemində islahatların aparılması məqsədilə bir sıra təşəbbüslər edilmişdir. Bunlar Bolonya prosesi və Ömür boyu təhsil üçün Avropa Kvalifikasiyalar Çərçivəsi olmuşdur. Milli kvalifikasiyalar çərçivəsinin (MKÇ) konsepsiyası 2005-ci ildən etibarən müzakirə olunmuşdur və peşə və ali təhsil sistemində təlim nəticələrinə əsaslanan yeni kurikulumlar üzrə pilot layihələr hazırlanmışdır. Avropa Ali Təhsil Sahəsi üzrə Kvalifikasiya Çərçivəsinə və Ömür boyu təhsil üzrə Avropa Kvalifikasiyalar Çərçivəsinə uyğun olaraq AzKÇ layihəsi hazırlanmış və təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir. Bu milli kvalifikasiyaların sistemləşdirilməsi, onların daha şəffaf və müqayisə oluna bilən edilməsi üçün alət rolunu oynayır. O həmçinin, təhsil və təlim müəssisələri ilə əmək bazarı arasında əlaqəni də təmin edəcəkdir.

Layihənin əsas məqsədi milli kvalifikasiya çərçivəsinin yaradılması və həyata keçirilməsini dəstəkləməklə Azərbaycanın təhsil sisteminin təkmilləşdirilməsinə töhfə verməkdir. Tapşırığın hədəfi Azərbaycanın Kvalifikasiyalar Çərçivəsini (AzKÇ) müvafiq kvalifikasiyalar ilə təmin etmək məqsədilə ölkədə, xüsusilə məzmun, daha dəqiq desək, kvalifikasiya standartları və kurikulumlar baxımından MKÇ-nin həyata keçirilməsini dəstəkləmək və müvafiq məsləhətlər verməkdir.

Kvalifikasiyalar sistemi nə üçün lazımdır?

Kvalifikasiya standartları mövcud kvalifikasiyaların necə mənimsənilməsi, onların hansı məzmuna malik olması, təminat prosesinə kimlərin cəlb olunması, onların keyfiyyətinin necə təmin edilməsi, onların nə dərəcədə əlaqəli olması və AzKÇ layihəsi ilə necə uzlaşması kimi suallara cavab tapmaq məqsədilə istifadə olunur.

Kvalifikasiya standartları nədir?

Kvalifikasiya standartları vətəndaşların peşəkar və fərdi səriştələrinin inkişafını nümayiş etdirmək məqsədilə dövlətin müəyyən sertifikat / diplomların verilməsi prosesini dəstəklədiyini göstərən sənədlərdir. Onlar həmçinin müvafiq sertifikata/ diploma malik şəxsin uyğun səriştələr üzrə məqbul səviyyədə qiymətləndirildiyinə dələlət edir. Onlar kvalifikasiya sənədlərinin verilməsi üçün meyarlar müəyyən edir.

AzKÇ kvalifikasiya standartlarına necə təsir göstərəcək?

AzKÇ kvalifikasiya standartlarını sistemləşdirəcək, onların əsas məqsədini təlimin təşkilindən onun nəticələrinin qiymətləndirilməsinə yönəldəcək və onların keyfiyyətini, şəffaflığı, eləcə də yerli və beynəlxalq səviyyədə müqayisə edilə bilmə imkanlarını artıracaqdır. Müxtəlif kvalifikasiyalar arasında

əlaqələr sadəcə olaraq müvafiq qanunvericilik çərçivəsi vasitəsilə deyil, eyni zamanda, tarazlı və qarışlıqlı əlaqəli təlim nəticələri vasitəsilə təmin ediləcəkdir. O həmçinin, standartlar üzrə alternativ təlim yollarının qəbuluna xidmət edəcəkdir.

Azərbaycanda kvalifikasiya standartları ilə müqayisə oluna bilən sənədlər təhsilin müxtəlif pillələri üzrə mövcud olan təhsil standartlarıdır. Onlar "Təhsil haqqında" Qanuna uyğun olaraq Təhsil Nazirliyi tərəfindən 5 il və daha artıq müddət üçün hazırlanır. "Təhsil haqqında" Qanuna əsasən, təhsil sahəsində dövlət standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr (5 ildən az olmayaraq) üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusudur. Dövlət təhsil standartları təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir. Təhsil müəssisələri təhsil standartları əsasında öz kurikulumlarını hazırlayır.

Hökumət yeni təhsil standartları və kurikulumları çərçivəsində təlim nəticələrini geniş şəkildə tətbiqinə başlamışdır. Lakin standartlar digər çoxsaylı məsələləri, o cümlədən resurs meyarlarını əhatə edir ki, bu da onların nəticələrə köklənmək məqsədi ilə ziddiyyət təşkil edir. Təlim nəticələrinin təsərrüfat subyektlərinin, fərdlərin və ümumilikdə cəmiyyətin səriştələrə olan ehtiyaclarını əks etdirməsi nəzərdə tutulur ki, bu tələbat da müxtəlif təlim formaları, o cümlədən qeyri-formal və formal təlim vasitəsilə ödənilməlidir. Təlim nəticələrinin standartlarda istifadə edilməsinin məqsədi əmək bazarı ilə təhsil sisteminin eyni dildə danışmasını təmin etmək üçün müxtəlif növ səriştələr üzrə ümumi baxışın təmin edilməsidir. Bu kvalifikasiyaların müqayisə olunmasına və uyğunluğuna xidmət edir. Burada əsas fikir təlim nəticələrini əldə etməkdə təhsilalanlara və təhsilverənlərə çeviklik imkanı təqdim etməkdir. Hazırkı kontekst çərçivəsində standartlar üzrə təlimin təklif meyarlarının müəyyən edilməsi alternativ imkanların qəbulunun məhdudlaşdırılması ilə nəticələnir.

Əsas diqqət təlim prosesinin necə təşkil edilməli olduğuna deyil, daha çox qiymətləndirmə meyarlarının müəyyən edilməsinə yönəldilməlidir. Standartlar təlim nəticələrinin qiymətləndirməsi üçün çərçivə təmin etməlidir. Qiymətləndirmə prosesi standartların müəyyən edildiyi nəticələrin əldə edildiyi təqdirdə uğurlu təhsilalanın özünü təsdiq etməsi üçün hansı bacarığa malik olduğunu yoxlamağa xidmət edən bir prosesdir.

Təhsil və təlim müəssisələri təlim nəticələrinin əldə edilməsi ilə bağlı fərqli üsullara malik ola bilər. Onlar özlərinin kurikulumlarını hazırlaya və təlim prosesinin müvafiq və effektiv hesab etdikləri formada təşkil edə bilər. Bu səbəbdən də, kvalifikasiya standartları kurikulumları əhatə edə bilməz. Bu effektivliyinin yüksəldilməsi ilə bağlı təminatçıların imkanlarını məhdudlaşdıra bilər. Lakin, kurikulum və təlim prosesinin təşkilinin uyğunluğu hər zaman kvalifikasiya standartlarının tələbləri ilə müqayisədə yoxlanmalıdır.

Təhsil standartları daxili keyfiyyət elementlərini əhatə edir. Kənar keyfiyyət elementləri isə "Təhsil haqqında" Qanun, Nazirlər Kabinetinin 28 sentyabr 2010-cu il tarixli 167 saylı qərarı ilə təsdiq edilmiş Təhsil müəssisələrinin akkreditasiyası haqqında qaydalar, Nazirlər Kabinetinin 13 yanvar 2009-cu il tarixli 9 saylı sərəncamı təsdiq edilmiş Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə konsepsiyası və digər hüquqi normativ sənədlər ilə tənzimlənir.

Təhsil müəssisələrinin akkreditasiyası haqqında qaydalara əsasən, təhsil müəssisəsinin akkreditasiyası təhsil prosesinin təşkilinin, müəssisənin maddi-texniki bazasının, kurikulumların, kadr potensialının, maliyyə resurslarının və ümumilikdə, tədris infrastrukturunun təhsil sahəsində dövlət standartlarının və digər hüquqi normativ sənədlərin tələblərinə cavab verib-vermədiyini müəyyən etmək məqsədilə həyata keçirilir. Eyni zamanda, qaydalar təhsil müəssisənin statusunun müəyyən edilməsi üçün hüquqi baza və onun fəaliyyətinin növbəti 5 il (xarici vətəndaşlar və / və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər tərəfindən yaradılan təhsil müəssisələri üçün 3 il) müddətinə artırılması üçün hüquqi təminat müəyyən edir. Təhsil müəssisənin akkreditasiyası Təhsil Nazirliyi

tərəfindən həyata keçirilir ki, bu qurum həmçinin akkreditasiyasının həyata keçirilməsi ilə bağlı tələb və meyarları da müəyyən edir.

Formal təhsilin müxtəlif pillələri arasında sistemlilik Nazirlər Kabinetinin 4 iyun 2010-cu il tarixli 104 saylı qərarı ilə təsdiq edilmiş "Təhsil proqramlarının (kurikulumların) yerinə yetirilməsi müddəti" ilə tənzimlənir. Digər bir qərara əsasən isə, ilkin peşə-ixtisasi təhsili müəssisələrinə təhsil müddəti ümumi orta təhsil müəssisənin bazasından daxil olan şagirdlər üçün 3 il, tam orta təhsil bazasından daxil olan şagirdlər üçün isə peşənin mürəkkəblik dərəcəsindən asılı olaraq 1-2 ildir. Ümumi orta, tam orta təhsil səviyyəsini bitirib hər hansı peşə üzrə iş təcrübəsinə malik şəxslərin ixtisasın artırılması və yenidən hazırlanması üzrə kurslarda təhsil müddəti 6 aya qədərdir.

Orta ixtisas təhsili proqramlarının əyani forma üzrə normativ təhsil müddəti ümumi orta təhsil bazasından qəbul olunanlar üçün 3-4 il, tam orta təhsil bazasından qəbul olunanlar üçün isə 2-3 ildir. Qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır.

Ali təhsil pilləsinin bakalavr pilləsində əyani forma üzrə təhsilin normativ müddəti 4-5 ildir. Qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır.

Magistratura pilləsində əyani forma üzrə təhsilin normativ müddəti 1-2 ildir. Qiyabi forma üzrə təhsil müddəti altı ay artıqdır.

Tibb təhsili üzrə əsas təhsil proqramlarının təhsil müddəti 5-6 il, rezidenturada isə 2-6 ildir.

Orta ixtisas, bakalavr və magistr pillələri üzrə təhsil müddəti müxtəlif ixtisasların tədris proqramları vasitəsilə müəyyən edilir.

Əyani doktorantura təhsilinin müddəti üç ildir. Qiyabi forma üzrə müddət bir il artdırdır.

Hesabatda istifadə edilən əsas anlaşılar aşağıdakı mənanı verir:

**Akkreditasiya** – təhsil müəssisəsinin fəaliyyətinin müvafiq keyfiyyət standartları tələblərinə uyğunluğunun müəyyən edilməsi və ona təhsil və təlim fəaliyyətinin həyata keçirməsi üçün zəruri icazə / səlahiyyətin verilməsi məqsədilə akkreditasiya təşkilatı tərəfindən təhsil müəssisəsinin və ya tədris proqramının təhlil edilməsi proseduru.

**Qiymətləndirmə** – bilik, bacarıq, vərdiş və davranışların adətən ölçülə bilən formada sənədləşdirilməsi prosesi. Qiymətləndirmə çərçivəsində əsas diqqət fərdi təhsilalana, təlim icmasına (sinif, seminar və ya təhsilalanların digər mütəşəkkil qrupu), instituta və ya ümumilikdə təhsil sisteminə yönəldilməlidir.

**Qiymətləndirmə meyarları** – təhsilalanın kurs və ya modulun gözlənilən təlim nəticələrini nə dərəcədə mənimsədiyini müəyyən etmək üçün qiymətləndirməni həyata keçirən şəxs tərəfindən istifadə edilən göstəricilər.

**Qiymətləndirmə standartı** – hər hansı kvalifikasiya üçün qiymətləndirmə meyarlarını və qiymətləndirmə metodlarının təsvir edən sənəd.

**Səriştə** – verilmiş sahədə müvafiq fəaliyyət meyarları (təlim nəticələri) vasitəsilə təsvir edilən uğurlu fəaliyyət bacarığı.

**Kredit** – konkret təlim nəticələrinin əldə olunması üçün zəruri olan vaxt çərçivəsində təhsilalanın dərs yükünün qiymətləndirilməsi məqsədi ilə istifadə olunan "vahid". Kredit təlim nəticələrinin əldə olunması prosesi ilə əlaqədar sərf olunan vaxt baxımından ölçülən dərs yükünə əsasən müəllim və təhsilalanlara təlimin həcmi və səviyyəsini qiymətləndirmək imkanı yaradır. Təhsilalana peşə fəaliyyəti və ya əvvəlki təhsil prosesi, eləcə də kurs işi vasitəsi ilə müəyyən səviyyədə əldə etdiyi təlim

nəticələrinin tanınması nəticəsində kredit verilə bilər. Bir qayda olaraq təhsilalanın əldə etmiş olduğu kredit itirilmir, baxmayaraq ki, müəyyən hallarda hər hansı bir təhsil müəssisəsi tədris proqramının tərkib hissəsi olaraq kreditin konkret vaxt çərçivəsində əldə olunması tələbini ortaya qoya bilər. Bu hal bilik və bacarıqların sürətlə dəyişdiyi sahələrdə (məs. informatika, tibb və s.) baş verə bilər.

**Kurikulum** (təhsil proqramı) – təhsil və təlim müəssisəsində təklif olunan kursların toplusu və onların məzmunu. Kurikulum daha praktikdir və müvafiq dərəcəni və ya standartı əldə etmək üçün hansı fənlərin və nə dərəcə də mənimsənilməli olduğunu müəyyən edən daha ümumi tədris proqramına əsaslanır.

**Təhsil və təlim standartları** – təhsil və təlimin məzmunu, eləcə də gözlənilən təlim nəticələri ilə bağlı tətbiq edilən standartların təsviri məqsədilə istifadə olunur.

**Təlim nəticələri** – təhsilalanın nələri bildiyi, anladığı və təlim prosesini bitirdikdə nəyi edə biləcəyini ifadə edən göstəricilər. Təlim nəticələri təhsilalan tərəfindən əldə edilməli olan səriştə səviyyəsi qismində ifadə olunur.

**Milli Kvalifikasiyalar Çərçivəsi (MKÇ)** – əldə edilən təlimin müvafiq səviyyələri üzrə meyarlara uyğun olaraq kvalifikasiyaların təsnifatına xidmət edən və milli kvalifikasiyaların alt-sistemlərinin inteqrasiya olunması və əlaqələndirilməsi, eləcə də əmək bazarı və cəmiyyət ilə münasibətdə kvalifikasiyaların şəffaflıq, keyfiyyət, inkişaf və onlara çıxış imkanı səviyyəsinin artırılması məqsədini daşıyan alət. Milli kvalifikasiyalar çərçivəsi beynəlxalq səviyyədə qəbul olunan vahid təsvirdir. Çərçivə nəzərdə keçirilən sistemin əhatə etdiyi bütün kvalifikasiyaları təsvir edir və onları bir-biri ilə sistemli şəkildə əlaqələndirir.

**Milli kvalifikasiyalar reyestri** – dövlət tərəfindən tanınan tədris proqramlarının / təhsil müəssislərinin / kvalifikasiyaların / peşələrin rəsmi milli siyahısı.

**Peşə standartı** – hər hansı peşə ilə əlaqəli vəzifə və funksiyaları müəyyən edən və qruplaşdıran, eləcə də müvafiq peşə üzrə uyğunluğu təsbit etmək üçün şəxs tərəfindən göstərilməsi gözlənilən səriştələri (bilik, bacarıq və davranışlar) və fəaliyyət göstəricilərini təsvir edən sənəd.

**Kvalifikasiya** – müvafiq səlahiyyətli qurum hər hansı bir şəxsin müvafiq standartlara uyğun olaraq təlim nəticələrini əldə etdiyini müəyyənləşdirdiyi zaman həyata keçirilən qiymətləndirmə və təsdiqedilmə prosesinin rəsmi nəticəsi. Səlahiyyətli qurum tərəfindən tanınan təlim proqramının uğurla tamamlanmasını təsdiq edən dərəcə, diplom və ya digər sertifikat.

**Kvalifikasiya üzrə diskriptorlar (kvalifikasiyanın ümumi növü)** – təhsilin gözlənilən (nəzərdə tutulan) nəticələrini ümumi şəkildə təsvir edən və milli səviyyələrə istinad olunmaqla kvalifikasiyalarla bağlı başlıca nəticələri əks etdirən ümumi təsviri ifadələr.

**Kvalifikasiya standartı** – təlim nəticələrində əks olunan səriştələrə malik olmağı təsbit edən rəsmi sənədin alınması üçün minimum tələblər toplusu.

# 1. Ümumi təhsildə kvalifikasiya standartları və kurikulumlar

Ümumi təhsil sistemində kvalifikasiya standartları Nazirlər Kabineti tərəfindən beş il müddətinə təsdiq edilən Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları) formasında mövcuddur. Bu standart 2010-cu ildə qəbul edilmişdir. O, təhsilin üç səviyyəsi – ibtidai təhsil (1-4-cü siniflər), ümumi orta təhsil (5-9-cu siniflər) və tam orta təhsil (10-11-ci siniflər) – üzrə kurikulumların hazırlanması və təhsilin təşkili üçün normativ sənəddir. İbtidai təhsil səviyyəsində müvafiq standart və kurikulumların mövcud olmasına baxmayaraq, burada heç bir kvalifikasiya (sertifikat) təqdim olunmur. “Təhsil haqqında” Qanuna əsasən, Azərbaycan Respublikasında 9 illik təhsili əhatə edən ümumi orta təhsil icbaridir. Ümumi təhsil attestatı şagirdə peşə təhsili və orta ixtisas təhsili pillələri üzrə öz təhsilini davam etdirmək imkanı verir.

Ümumi təhsil sistemində təlim nəticələrinin qiymətləndirilməsi Nazirlər Kabinetinin 13 yanvar 2009-cu il tarixli 9 saylı qərarı və Təhsil Nazirliyinin 2 sentyabr 2013-cü il tarixli 792 nömrəli əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ümumtəhsil sistemində qiymətləndirmə Konsepsiyası” vasitəsilə tənzimlənir.

Konsepsiyada qiymətləndirmə fəaliyyəti ilə bağlı mövcud tələblər, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi sisteminin məqsədləri, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsinin əsas xüsusiyyətləri, qiymətləndirmənin əsas növləri, qiymətləndirmə standartlarının və qiymətləndirmə alətlərinin hazırlanması, kurikulum-əsaslı qiymətləndirmə (şagirdlərin fəaliyyətinin təlim standartlarına uyğunluğunun müəyyən edilməsi), milli və beynəlxalq qiymətləndirmənin mahiyyəti və strukturu və s. bu kimi məsələlər əks olunur. Konsepsiyaya əsasən, şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi aşağıdakı məqsədlərə xidmət edir:

- şagirdin nailiyyətinin (və ya geriləmələrinin) izlənməsi (monitorinqi);
- təlim prosesində qərarların qəbulu;
- şagirdin təlim nəticələrinin qiymətləndirilməsi;
- kurikulumun qiymətləndirilməsi.

Sistemli proses olan qiymətləndirmə təlim nəticələri ilə maraqlı tərəflər arasında səmərəli əks-əlaqə vasitəsi kimi aşağıdakı komponentləri əhatə etməklə qurulur:

- qiymətləndirmə məlumatları;
- məlumatların toplanması;
- qiymətləndirmə nəticələri;
- qiymətləndirmə standartları (bu standartlar təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir);
- şagird nailiyyətlərinin qiymətləndirilməsində əsas prinsiplər.

Konsepsiyada bütün növ qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunması qeyd olunur:

- məqsədəuyğunluq (nəzərdə tutulmuş məqsədlə qiymətləndirmə arasında uzlaşma);
- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;

- bilavasitə təhsil sistemi ilə bağlı indikatorlar vasitəsilə qiymətləndirmə – dövlət standartları, tədris proqramları, adambaşına düşən təhsil xərcləri;
- digər indikatorlar vasitəsilə – məişət problemləri ilə bağlı məsələlər;
- validlik və relevantlıq (toplanmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin edilməsi);
- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin edilməsi.

Konsepsiyada qiymətləndirmənin diaqnostik, formativ və summativ formaları müəyyən olunur. Burada həmçinin, monitorinq vasitəsilə toplanan informasiyanın təhsil prosesinin formalaşdırılması məqsədilə necə istifadə edilə bilməsi təsvir olunur.

Konsepsiyada qiymətləndirmə standartlarının hazırlanması ilə bağlı təlimatlar da əks olunur. Sözügedən standartlar təhsil standartları və kurikulumlar vasitəsilə müəyyən edilən standartların məzmununun əldə edilməsinin yoxlanılmasına xidmət edir. Qiymətləndirmə standartları faktiki olaraq şagirdlərin nəyi bacardıqlarının ölçülməsinə deyil, mütəxəssis mühakimələrinə əsaslanır. Onlar 4 səviyyə üzrə qiymətləndirmə sxemləri şəklində hazırlanır. Şagirdlərin necə çalışmasının və onların ayrı-ayrı fəaliyyətlərinin qiymətləndirilməsi məqsədilə holistik və analitik qiymətləndirmə sxemləri müəyyən edilir.

Məktəbdaxili qiymətləndirmə üç komponenti əhatə edir: (i) şagird nailiyyətlərinin və irəliləyişlərinin monitorinqi; (ii) şagird fəaliyyətinin təlim standartlarına uyğunluğunun müəyyənləşdirilməsi (kurikulum üzrə qiymətləndirmə); və (iii) ümumi təhsilin səviyyələri üzrə yekun qiymətləndirmənin (buraxılış imtahanlarının) aparılması. Kurikulum üzrə qiymətləndirmə şagirdin təlim nəticələrinin məzmun standartlarına uyğunluğunu müəyyənləşdirir. Kurikulum üzrə qiymətləndirmə müəllimlər tərəfindən hər təhsil ilində və direktorlar tərəfindən hər təhsil səviyyəsinin sonunda həyata keçirilir.

Milli qiymətləndirmələr kurikulumların, təlim-tədris prosesinin keyfiyyətinin qiymətləndirilməsi, habelə təhsilin keyfiyyətinə nəzarətin daha səmərəli həyata keçirilməsi məqsədilə 4-cü və 9-cu sinif şagirdləri arasında hər 4-5 ildən bir aparılır.

Beynəlxalq qiymətləndirmə hər üç ildən bir həyata keçilir. Burada məqsəd Azərbaycanda təhsilin inkişaf səviyyəsini müəyyən etmək, beynəlxalq miqyasda müqayisələr aparmaq və təhsil siyasətinin prioritet iqamətlərini müəyyən etməkdir.

Təhsil standartlarına əsasən, təlim nailiyyətlərinin qiymətləndirməsi:

- təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi ardıcıl və sistemli xarakter daşıyır, təhsilin keyfiyyətinin dəyərləndirilməsinə və yüksəldilməsinə xidmət edir;
- təhsilin keyfiyyəti və inkişafı haqqında müvafiq məlumatların (şagirdlərin təlimə münasibətləri və onların nailiyyətləri, müəllimlərin hazırlıq səviyyəsi, kurikulumların məqsədəmüvafiqliyi, təlim resursları ilə təminatı və idarəetmə üsulları) toplanması və onların təhlili ilə müşayiət olunur;
- məqsədəmüvafiqlik, qarşılıqlı dəyərləndirmə və etibarlılıq, inkişafyönümlülük, şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır;
- test tapşırıqlarının verilməsi və yoxlanması, sinifdə müşahidələrin aparılması, fənn kurikulumlarının icra vəziyyətinin, şagird və müəllimlərin fəaliyyətinin müşahidə olunması, qiymət cədvəllərinin və digər məktəb sənədlərinin təhlili və digər üsullarla həyata keçirilir.

Təlim nailiyyətlərinin qiymətləndirilməsi məktəbdaxili, milli və beynəlxalq istiqamətlərdə aparılır.

Məktəbdaxili qiymətləndirmə 3 komponent üzrə həyata keçirilir:

- şagird irəliləyişinin monitorinqi - məktəb səviyyəsində müəllim və məktəb rəhbərləri tərəfindən həyata keçirilir, bu mərhələdə şagirdlərin nailiyyətləri formativ (müntəzəm, davamlı), mikrosummativ (bəhs və bölmələr üzrə) və makrosummativ (yarımilliklər üzrə) formalarda yazılı və şifahi aparılır;

- kurikulum üzrə qiymətləndirmə - şagirdlərin təlim nəticələrinin müvafiq məzmun standartlarına uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə aparılır;

- təhsil səviyyələri (orta və tam orta) üzrə yekun qiymətləndirmə - mərkəzləşmiş qaydada aparılan buraxılış imtahanları formasında həyata keçirilir və müvafiq təhsil sənədinin verilməsi ilə başa çatır. Tam orta təhsil pilləsində şagirdlərin müvafiq təmayüllər üzrə təhsil almaları ümumi orta təhsil səviyyəsində keçirilmiş yekun qiymətləndirmənin nəticələrinə görə müəyyən olunur.

Milli qiymətləndirmə, bir qayda olaraq, 4-5 ildən bir keçirilir. Onun məqsədi təhsil prosesinin təşkili, planlaşdırılması və aparıldığı şərait haqqında toplanmış məlumatlar vasitəsilə kurikulumların keyfiyyətini və ümumi təhsil sistemində baş verən dəyişiklikləri dəyərləndirməkdir.

Beynəlxalq qiymətləndirmə aşağıdakı məqsədlərlə aparılır:

- hər üç ildən bir seçmə yolla şagirdlərin təlim göstəriciləri əsasında təhsilin vəziyyəti barədə təsəvvür əldə etmək;

- müvafiq məlumatları təhlil etməklə problemləri aşkara çıxarmaq və onların həlli yollarını müəyyənləşdirmək;

- mövcud vəziyyəti digər ölkələrlə müqayisə etmək və perspektiv inkişaf istiqamətlərini proqnozlaşdırmaq;

- toplanmış məlumatları təhlil etmək, müvafiq nəticələrdən ölkədə təhsil sisteminin perspektiv inkişaf istiqamətlərinin müəyyən edilməsi və hazırlanması məqsədilə istifadə etmək.

Məktəbdaxili qiymətləndirmə Təhsil Nazirinin 2 sentyabr 2013-cü il tarixli 792 saylı əmri ilə tənzimlənir. Burada diaqnostik, formativ və summativ qiymətləndirmənin aparılması üçün prosedurlar müəyyən edilir.

## 1.1. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)

Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 iyun 2010-cu il tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmiş və 19 yanvar 2012-ci il tarixində sənədə əlavə və dəyişiklər edilmişdir. O, ümumi təhsilin məzmununu, idarəetmə, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyən edən çərçivə rolunu oynayır.

Standartda ümumi təhsilin məzmunu ilə bağlı tələblər müəyyən edilir. Burada təhsilin məzmununu təhsilalanın və cəmiyyətin tələbatına, dövlətin təhsil siyasətinə uyğunlaşdırmaq tələb edilir. Nəticəyönümlülük, şəxsiyyətyönümlülük, şagirdyönümlülük və inteqrativlik məzmunun əsas prinsiplərdir. Standarta əsasən, ümumi təhsilin məzmunu şagirdlərin bazar münasibətlərinin tələblərinə uyğun zəruri bilik və bacarıqlara yiyələnməsini, əqli, fiziki, mənəvi, estetik inkişafını, cəmiyyətin faydalı və məhsuldar üzvünə çevrilməsini təmin etməlidir.

Hesabatlılıq, məsuliyyətin bölüşdürülməsi və inkişafın monitorinqi ümumi təhsilin idarə edilməsinin baza prinsipləridir. Standartlara əsasən, ümumi təhsil müəssisələri Pedaqoji Şuralar tərəfindən idarə olunur. Bu şuraların əsasnaməsi təhsil naziri tərəfindən təsdiq olunur.

Ümumi təhsil pilləsinin standartında təhsilverənlər üçün keyfiyyət göstəriciləri – onların təhsili (adətən, ali pedaqoji təhsil), uşaqlar ilə işləmək bacarığı, əxlaqi-mənəvi və etik keyfiyyətləri, əməkdaşlıq, özünütəhsil, idarəetmə bacarıqları və s. üzrə tələblər – müəyyən edilir. Təhsilverənlərin keyfiyyət göstəriciləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən attestasiya qaydalarına əsasən müəyyən edilir.

Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları) təhsilalanların bilik, bacarıq və vərdişləri ilə bağlı tələbləri də müəyyən edir. Bilik, bacarıq və vərdişlərinin səviyyəsi ümumi təhsilin hər bir səviyyəsi üzrə təsdiq olunmuş təlim nəticələri və fənlər üzrə məzmun standartları ilə müəyyən edilir. Təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyən edən təlim nəticələri və məzmun standartları aşağıdakı tələbləri müəyyən edir:

- fərdin, dövlətin, cəmiyyətin maraq və tələbatının ödənilməsi;
- təhsilin nəticəyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsipləri əsasında qurulmasına didaktik zəmin yaradılması;
- təhsilalanların həyati bacarıqlara yiyələnməsinin prioritet hesab edilməsi;
- keyfiyyətli təhsil almaq üçün hamıya bərabər imkanların yaradılması və s.

Ümumi təhsil pilləsinin dövlət standartında təhsil proqramımın (kurikulumun) məzmunu aşağıdakı kimi müəyyən edilir:

- ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri və məzmun standartları;
- ümumi təhsilin hər bir səviyyəsində tədris olunan fənlər;
- ümumi təhsilin səviyyələri üzrə həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarı;
- ümumi təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri;
- təlim nailiyyətlərinin (nəticələrinin) qiymətləndirilməsi və monitorinqi.

Standartlarda təlim nəticələri ümumi təhsilin üç səviyyəsi üzrə təsvir edilir: ibtidai təhsil, ümumi orta təhsil və tam orta təhsil. Sənədə əsasən, müvafiq təhsil səviyyəsini başa vuran şagird aşağıdakıları bacarmalıdır:

İbtidai təhsil üzrə:

- yaşına uyğun bədii, elmi-kütləvi və məlumat xarakterli mətnləri müəyyən edilmiş qaydada oxumağı;
- oxuduğu mətndəki əsas məzmunu ayırmağı və ona öz fikrini bildirməyi;
- lüğətlərdən, məlumat xarakterli vəsaitlərdən, kompüter texnikasından istifadə etməyi;
- zəruri riyazi bilikləri həyatda tətbiq etməyi, sadə alqoritmləri yerinə yetirməyi və s.

Ümumi orta təhsil üzrə:

- dinlədiyi və oxuduğu müxtəlif üslubda və janrda olan mətnləri təhlil etməyi, onların məzmununa dair şərh verməyi;

- plan, tezis, icmal tərtib etməyi, layihə, rəy hazırlamağı;
- hesablamalar və proqnozlaşdırma aparmağı, riyazi dildən istifadə etməyi, alqoritmlər qurmağı, ehtimallar irəli sürməyi;
- problemlərin həllində birgə fəaliyyət göstərməyi, kollektiv iş prosesində özünün və başqalarının fəaliyyətini qiymətləndirməyi və s.

Tam orta təhsil üzrə:

- dinlədiklərinə və oxuduqlarına tənqidi və yaradıcı münasibət bildirməyi, maraq dairəsinə görə onları yeni məlumatlarla zənginləşdirməyi;
- qarşılaşdığı həyati problemləri qiymətləndirməyi və onların həlli istiqamətində optimal qərarlar qəbul etməyi;
- insan əməyini, vətəndaşların hüquq və azadlıqlarını dəyərləndirməyi, milli əxlaqi-mənəvi dəyərlərə, habelə ümumbəşəri dəyərlərə həssas və tolerant münasibət bəsləməyi;
- icraçılıq, təşkilatçılıq və idarəetmə ilə bağlı funksiyaları yerinə yetirməyi və bu proseslərdə liderlik xüsusiyyətlərini nümayiş etdirməyi və s.

Ümumi təhsilin hər bir səviyyəsi, sinifləri və tədris edilən fənlər üzrə şagirdlərin dövlət tələbi əsasında əldə etməli olduqları bilik və bacarıqların səviyyəsi təlim nəticələri (standartlar) formasında müəyyən olunur.

Ümumi təhsilin səviyyələri üzrə fənlər üçün dərs və dərsdənkənar məşğələ saatlarının maksimum miqdarı müəyyən edilir.

Pedaqoji prosesinin təşkilatçılıq prinsipləri aşağıdakıları özündə ehtiva edir: pedaqoji prosesin tamlığı, təlimdə bərabər imkanların yaradılması, şagirdyönümlülük, inkişafyönümlülük, fəaliyyətin stimullaşdırılması və dəstəkləyici mühitin yaradılması.

Tədris planları nazirin əmri ilə hər il təsdiq olunur. Planlarda siniflər üzrə həftəlik dərs və dərsdənkənar məşğələ saatları, həmçinin seçmə fənlər üzrə həftəlik dərs yükü əks olunur.

## 1.2. İbtidai təhsil səviyyəsinin kvalifikasiya standartı və kurikulumları

İbtidai təhsil səviyyəsinin kvalifikasiya standartları ümumi təhsil pilləsinin dövlət standartlarının bir hissəsidir. Yuxarıda qeyd edildiyi kimi, ümumi təhsilin müxtəlif səviyyələri üçün ayrıca standartlar mövcud deyildir. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramlarında (kurikulumları) qeyd edilən təlim nəticələri ümumi təhsilin müxtəlif səviyyələri, o cümlədən ibtidai təhsil üçün kurikulumların əsasını təşkil edir. Bu kurikulumlar Təhsil Problemləri İnstitutu tərəfindən müxtəlif fənlər üzrə hazırlanır və Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.

İbtidai təhsil kurikulumuna 10 fənn daxildir: Azərbaycan dili, Azərbaycan dili dövlət dili kimi, riyaziyyat, xarici dil, informatika, həyat bilgiləri, musiqi, fiziki tərbiyə, təsviri incəsənət və texnologiya.

Hər bir kurikulum iki qrup təlim nəticələrini əhatə edir: (i) ümumi təlim nəticələri – dövlət standartında olduğu kimi, və (ii) məzmun xətləri üzrə təlim nəticələri. İbtidai təhsil üçün ümumi təlim nəticələri və məzmun xətləri üzrə təlim nəticələri 1-4-cü təhsil illəri üzrə bölünür. Məsələn, Azərbaycan dili üçün kurikulumda nəticələr 4 məzmun xətti üzrə qruplaşdırılır: (i) dinləyib-anlama və danışma, (ii) oxu, (iii) yazı, (iv) dil qaydaları. Riyaziyyat fənnində təlim nəticələri aşağıdakı məzmun xətləri üzrə qruplaşdırılır: (i) ədədlər və əməllər, (ii) cəbr və funksiyalar, (iii) həndəsə, (iv) ölçmə, (v) statistika və ehtimal. Bəzi fənlər üzrə siniflər yüksəldikcə məzmun xətləri mürəkkəblik səviyyəsindən asılı olaraq

artır. Xarici dil kurikulumunda birinci sinif üzrə məzmun vahidi yalnız (i) dinləyib-anlama və (ii) danışma elementlərini əhatə edir. Yazı vahidi ikinci sinifdə, oxu isə üçüncü sinifdə əlavə edilir.

## 1.3. Ümumi orta təhsilinin kvalifikasiya standartı və kurikulumları

Ümumi orta təhsilin kurikulumuna 18 fənn daxildir: ibtidai təhsil üzrə 10 fənn və bundan əlavə 8 fənn. Onlar təhsilin 5-9-cu siniflərini əhatə edir. Kurikulumun strukturu ibtidai təhsildə olduğu kimidir: ümumi təlim nəticələri və məzmun xətləri üzrə təlim nəticələri. İbtidai təhsildən fərqli olaraq, ümumi orta təhsil kvalifikasiya (ümumi orta təhsil haqqında şəhadətnamə) verir ki, bu da əmək bazarında aşağı səviyyəli işlərdə çalışmağa və ya ilk peşə-ixtisas təhsili və subbakalavr pillələri üzrə təhsili davam etdirməyə imkan verir.

## 1.4. Tam orta təhsilinin kvalifikasiya standartı və kurikulumları

Tam orta təhsil səviyyəsinin kurikulumları ibtidai və ümumi orta təhsil səviyyələrində olduğu kimi, eyni struktura malikdir. Onlar iki illik müddət üzrə 15 fənni əhatə edir. Tam orta təhsili bitirənlər təhsilini ilk peşə ixtisas təhsili, subbakalavr və bakalavr səviyyələrində davam etdirmək imkanı verən attestatla təmin olunurlar. Tam orta təhsil müəssisələrinin məzunları əmək bazarına, adətən, aşağı-ixtisaslı işlərlə daxil olurlar.

## 1.5. Əsas nəticələr, o cümlədən mövcud kvalifikasiya növləri üzrə diskriptorların AzKÇ tələblərinə cavab vermək üçün necə dəyişdirilməli olduğunun qiymətləndirilməsi

Mövcud standartlarda bir sıra boşluqlar vardır. Ümumi təhsil pilləsi standartının bütün məzmun xətləri təhsilin təklif tərəfi ilə bağlıdır. Təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsinin standartda müəyyən edilməsinə baxmayaraq, cəmiyyətin və iqtisadiyyatın onlara tələbatı burada əks olunmamışdır. Ümumi təhsilin mövcud kurikulumu hər hansı təmayülləşməyə imkan vermir. Onlar bütün sahələr üçün bərabər səviyyədə tətbiq olunur. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları) təlim nəticələrini, təhsilverənlərin keyfiyyət göstəricilərini, onların bilik və bacarıqlarına dair tələbləri, qiymətləndirmə və monitorinq prinsiplərini əhatə edir. Lakin onlar təlim nəticələri üçün qiymətləndirmə meyarlarını, irəliləmə imkanlarını, keyfiyyətə təminat tədbirlərini və kvalifikasiya standartları üçün digər zəruri tələbləri əks etdirmir.

Bütün bu tələblər ayrıca sənədlərdə (Nazirlər Kabinetinin qərarları, Təhsil nazirinin əmrləri) sistemsiz şəkildə müəyyən olunur. Bunun səbəblərindən biri çevikliyin təmin edilməsidir. Belə ki, Nazilər Kabinetinin qərarları ilə təsdiq olunan normativ sənədlər ilə müqayisədə qanunlara hər hansı dəyişiklərin edilməsi daha çox vaxt və səy tələb edir. Nazirlik tərəfindən təsdiq olunan normativ sənədlərə dəyişikliklərin edilməsi isə daha az vaxt tələb edir. Lakin şəffaflığın və effektivliyin təmin edilməsi baxımından kvalifikasiyaların strukturuna inteqrasiyalı yanaşma tələb olunur.

AzKÇ-nin tələlərinə cavab vermək üçün standartlar alternativ təhsilalma yollarını, o cümlədən “Təhsil haqqında” Qanana uyğun olaraq qeyri-formal və informal təhsilin tanınması vasitəsilə kvalifikasiyaların əldə edilməsi sxemlərini əks etdirməlidir. Eyni zamanda, bilik və bacarıq tələbləri əvəzinə təhsilverənlərin kvalifikasiya və təcrübə tələblərinin göstərilməsi də vacibdir.

Təlim nəticələri üzrə qiymətləndirmə meyarları, tanınma, o cümlədən qiymətləndirmə və sertifikatlaşdırma, keyfiyyətə təminat tədbirləri, həcm krediti, irəliləmə imkanları və alternativ yollar kurikulumlarda əks etdirilməlidir.

Müxtəlif səviyyələr arasında keçidi təmin etmək məqsədilə ilk peşə-ixtisas təhsili müəssisələrinin, orta ixtisas təhsili müəssisələrinin və universitetlərin birgə iştirakı ilə təlim nəticələrini əks etdirən kurikulumlar hazırlanmalıdır. Onlar ümumi təhsil ilə bağlı tələbatlarını kvalifikasiya standartlarında əks

etdirməlidir. Kurikulumlar üçün mürəkkəblik səviyyələrinin və ya kateqoriyaların tətbiq edilməsi bir seçim ola bilər. Məsələn, ümumi orta təhsil müəssiələrinin yuxarı sinif şagirdləri təhsilini ilk peşə-ixtisas təhsili müəssisələrində davam etdirmək istədikləri halda Azərbaycan dili üçün 2-ci kateqoriyanı, subbakalavr və ya bakalavr dərəcəsi əldə etmək istədikləri halda isə 3-cü kateqoriyanı seçə bilərlər. Bu halda, 1-ci kateqoriya gündəlik sadə ünsiyyətə, 2-ci kateqoriya texniki təhsilə xidmət edəcək, 3-cü kateqoriya isə daha akademik olacaqdır. Bu yanaşma ümumi təhsilin bütün fənləri üzrə tətbiq oluna bilər. Bunu etmək mümkün olmadığı halda isə, əsas fənlər, hazırda olduğu kimi, hamı üçün eyni şəkildə tədris edilə və təmayülləşmə imkanı vermək üçün əlavə kurslar keçilə bilər. Bu, orta təhsildə effektivliyin əldə edilməsinə xidmət etməklə yanaşı, formal təhsilin digər pillələri üçün də faydalı olacaqdır.

Mövcud standartlar təlim nəticələrini əks etdirir ki, bu da şagirdlərin təkcə onların öyrəndikləri məsələlər üzrə deyil, həmçinin, əldə etdikləri bilikləri real həyatda tətbiq etmək bacarığı əsasında yoxlanmasını təmin edir. Lakin bu, təklif əsaslı təhsildən tələb əsaslı təhsilə keçid üçün kifayət etmir. AzKÇ-nin əsas tələblərindən biri təhsil ilə əmək bazarı arasında əlaqənin inkişaf etdirilməsidir. Bu səbəbdən, bütün maraqlı tərəflərin, o cümlədən dövlətin, təsərrüfat subyektlərinin, valideynlərin və təhsilverənlərin tələbatının əks olunması üçün ümumi təhsilin kvalifikasiya standartlarının ictimai dinləmələr yolu ilə hazırlanması daha məqsədəuyğundur. Mövcud qanunvericilik bu cür yanaşmanın tətbiqinə imkan verir.

# 2. İlk peşə-ixtisas və orta ixtisas təhsilində kvalifiaksiya standartları və kurikulumlar

## 2.1. İlk peşə-ixtisas və orta ixtisas təhsili pillələrinin kvalifikasiya standartları və kurikulumları

İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı (kurikulum) Nazirlər Kabinetinin 23 aprel 2010-cu il tarixli 77 nömrəli qərarı ilə, Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı isə Nazilər Kabinetinin 23 aprel 2010-cu il tarixli 76 saylı qərarı ilə təsdiq edilmişdir. Onların hər iksi 5 il müddətinə qüvvədədir.

Sözügedən qərarda göstərilir ki, ilk peşə-ixtisas təhsilinin dövlət standartı "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla fərdin, cəmiyyətin və dövlətin tələbatına uyğun elmi-pedaqoji prinsiplər əsasında hazırlanmışdır. İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartının məqsədi əmək bazarının ehtiyaclarına uyğun olaraq ümumi orta və tam orta təhsil bazasında müxtəlif peşələr üzrə ixtisaslı işçi qüvvəsinin hazırlanmasını təmin etməkdir.

Həm ilk peşə-ixtisas təhsili, həm də orta ixtisas təhsili pilləsinin standartı, ümumtəhsil standartında olduğu kimi, eyni struktura malikdir. Yəni onlar təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsinini əhatə edir. İlk peşə-ixtisas təhsili pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi təsdiq edilmiş təlim nəticələri və fənlər üzrə məzmun standartları ilə müəyyən edilir.

Həm ilk peşə-ixtisas təhsili, həm də orta ixtisas təhsilinin məzmunu və təşkili ilə bağlı ümumi tələblər aşağıdakı istiqamətləri əhatə edir:

- təhsilalanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabətqabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq bacarığını formalaşdırmaq;
- öz üzərinə məsuliyyət götürmək, kollegial qərarların qəbulunda, demokratik təsisatların fəaliyyətində və inkişafında iştirak etmək keyfiyyətlərinə malik, müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq;
- təhsilalanların fasiləsiz təhsil almasını, daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə yiyələnməsini, cəmiyyətin tələbatını lazımınca ödəməsini, şəxsiyyət kimi inkişaf etməsini və ömür boyu təhsilin hamı üçün açıq və bərabər imkanlı olmasını təmin etmək;
- cəmiyyətin yüksək səviyyəli və rəqabətqabiliyyətli kadr potensialına tələbatının ödənilməsi üçün real zəmin yaratmaq;
- təhsilalanlarda yüksək intellektual səviyyə və praktiki iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmaq;
- tədris prosesinin təhsilalanların və təhsilverənlərin insan ləyaqətinə hörmət etməsi əsasında qurulmasını təmin etmək, təhsilalana qarşı hər hansı fiziki və psixoloji zorakılığa yol verməmək.

İlk peşə-ixtisas təhsili standartlarında bunlardan əlavə iki tələb də mövcuddur:

- təhsilalanları müstəqil həyata hazırlamaq, onlara seçdikləri peşələri mükəmməl öyrətmək, milli və beynəlxalq əmək bazarında rəqabət aparmaq xüsusiyyətlərinə malik olmalarına nail olmaq;
- təhsilalanlarda ünsiyyət mədəniyyəti, müstəqil surətdə bilik və bacarıqlar qazanmaq və praktiki işdə tətbiq etmək qabiliyyəti, təşkilatçılıq, tədqiqatçılıq və birgə fəaliyyət vərdişləri formalaşdırmaq.

Orta ixtisas təhsilinin dövlət standartı və proqramı "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun hazırlanmışdır və orta ixtisas təhsili sahəsində sınanmış mütərəqqi beynəlxalq meyarlar, milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla, vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusudur.

Anlayışlardan da göründüyü kimi, ilk peşə-ixtisas təhsili pilləsinin standartı və kurikulumu cəmiyyətin və dövlətin ehtiyacları əsasında hazırlandığı halda, subbakalavr pilləsinin standartı yalnız ümumi dövlət tələblərini nəzərə alır.

Standarta əsasən, orta ixtisas təhsili üzrə təhsil proqramlarının müvafiq ixtisaslar üzrə ümumi təhsil və ali təhsil proqramlarına uyğunluğu təmin edilir. Təhsilin müxtəlif səviyyələri arasında əlaqəni təmin edən bu cür yanaşma ilk peşə-ixtisas təhsili standartında mövcud deyildir.

Nə ilk peşə-ixtisas təhsili pilləsinin standartında, nə də orta ixtisas təhsili pilləsinin standartında təsərrüfat subyektləri ilə əməkdaşlıq çərçivəsi müəyyən olunmamışdır ki, bu da hazırda peşə təhsili sisteminin təklifə əsaslandığını göstərir.

İlk peşə-ixtisas təhsilində olduğu kimi, orta ixtisas təhsilində də ümumi orta təhsil bazasından daxil olan şagirdlərin tam orta təhsil almaları təmin edilir. Dövlət standartlarına əsasən, subbakalavr səviyyəsində təhsil əyani, qiyabi, distant və sərbəst (eksternat) formada təşkil oluna bilər.

Orta ixtisas təhsili pilləsinin standartında təhsilverənlər ilə bağlı bir neçə keyfiyyət göstəricisi təsvir olunur və Nazirlər Kabinetinin təsdiq etdiyi attestasiya qaydalarına istinad edilir. İndiyə qədər təsvir edilən digər standartlardan fərqli olaraq, burada təhsilalanların bilik və bacarıq səviyyəsi əks olunmamışdır; əvəzində, qiymətləndirmə prinsip və metodlarını təsvir edilmişdir. Məzunun ümumi və peşə kompetensiyalarına qoyulan tələblər müvafiq təhsil standartı əsasında ixtisaslar üzrə yeni hazırlanmış təhsil proqramlarında əks olunmuşdur.

İlk peşə-ixtisas təhsili pilləsində təhsil alan şagirdlərin bilik və bacarıqlarının səviyyəsi müvafiq fənn üzrə təsdiq olunmuş təlim nəticələri və məzmun standartları vasitəsilə müəyyən olunur. Təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyələrini müəyyən edən təlim nəticələri və məzmun standartları aşağıdakı tələblərə cavab verir:

- fərdin, dövlətin, cəmiyyətin maraq və tələbatının ödənilməsi;
- təhsilin nəticəyönümlülük, şəxsiyyətyönümlülük, inteqrativlik prinsipləri əsasında qurulmasına zəmin yaradılması;
- təhsilalanların həyati bacarıqlara yiyələnməsinin prioritet hesab edilməsi;
- keyfiyyətli təhsil almaq üçün hamıya bərabər imkanların yaradılması;
- təhsil səviyyələri üzrə təhsil proqramlarında (kurikulumlarda) varisliyin təmin edilməsi;
- təhsilalanların sağlamlığının qorunması məqsədi ilə ağırlaşdırıcı tədris materiallarının təlim prosesinə gətirilməsinin qarşısının alınması;
- işəgötürənlərin və əmək bazarının tələblərinə uyğun ixtisasın artırılması və təkmilləşdirilməsi;
- gələcək peşənin mənasının və sosial əhəmiyyətinin dərk edilməsi;
- peşə fəaliyyətini həyata keçirmək üçün nümunəvi metodlar və üsulların seçilməsi, onların nəticələrinin və keyfiyyətinin qiymətləndirilməsi;
- müasir texnika, texnologiya və informasiya-kommunikasiya texnologiyaları avadanlıqlarından istifadə edilməsi.

Mövcud standartlara uyğun olaraq, ilk peşə-ixtisas təhsili proqramları (kurikulumları) aşağıdakıları əhatə edir:

- ilk peşə-ixtisas təhsili pilləsi üzrə təlim nəticələri və məzmun standartları;
- ilk peşə-ixtisas təhsili pilləsində tədris olunan fənlər;
- ilk peşə-ixtisas təhsili pilləsində həftəlik dərs yükü və dərsdənkənar məşğələ saatlarının miqdarı;
- ilk peşə-ixtisas təhsili sistemində pedaqoji prosesin təşkili;
- ilk peşə-ixtisas təhsilində təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması;
- ilk peşə-ixtisas təhsili üzrə nümunəvi tədris planları.

Strukturu ümumi təhsilin kurikulumu ilə müqayisə etdikdə biz ilk peşə-ixtisas təhsili üçün xarakterik olan nümunəvi təlim planı istisna olmaqla, eyni strukturu görə bilərik. Orta təhsildə baza təlim planları və proqramları Təhsil Nazirliyi tərəfindən təsdiq edildiyi halda, ilk peşə-ixtisas təhsili müəssisələri peşə ixtisasları üzrə təlimlərin təşkili zamanı istənilən təlim metodlarından istifadə etməkdə sərbəstdir.

İlk peşə-ixtisas təhsilində pedaqoji prosesin təşkili, təhsil nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi ümumi təhsil pilləsində olduğu kimidir. Ümumi təhsildən fərqli olaraq, ilk peşə-ixtisas təhsilinin ixtisaslaşma verdiyini nəzərə alsaq, bu iki müxtəlif təhsil pilləsi üçün təlim və qiymətləndirmə üzrə eyni yanaşmanın tətbiqi cəmiyyətin, iqtisadiyyatın və dövlətin təhsil sistemindən tələblərinin qarşılanması baxımından arzuolunan nəticələri təmin edə bilməz. Praktiki bacarıqların qiymətləndirilməsi fərqli qiymətləndirmə forması və metodları tələb edir. İlk peşə-ixtisas təhsili standartında təhsilalanların təlim nailiyyətlərinin (nəticələrinin) qiymətləndirilməsi üçün müstəqil ekspertlərin (müəssisələrdən) cəlb edilməsi üçün hər hansı çərçivə nəzərdə tutulmamışdır. Qeyd

etmək lazımdır ki, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulması Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının qarşıya qoyduğu vəzifələr sırasındadır.

Mövcud standarta əsasən, ilk peşə-ixtisas təhsili müəssisələrində təhsilverənlər ümumtəhsil müəssislərinin müəllimləri ilə eyni keyfiyyət göstəricilərinə və əlavə olaraq aşağıdakı göstəricilərə malik olmalıdırlar:

- müvafiq peşə-ixtisas sahəsi üzrə azı 3 il istehsalat və ya pedaqoji təcrübə;
- müəllimlərin əsasən ali, istehsalat təlim ustalarının isə ali və ya orta ixtisas təhsilinə malik olmaqla yanaşı, ixtisas dərəcələrinin təhsilalanlar üçün nəzərdə tutulmuş ixtisas dərəcəsindən yuxarı olması;
- innovativ təlim metodlarından, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək bacarığı;
- təsisçi tərəfindən yeni təyin edilmiş məktəb rəhbərlərinin və pedaqoji təhsili olmayan mühəndis-texnoloqların işə qəbul edildikdən sonra 3 ay müddətində icbari surətdə pedaqogika, psixologiya və metodika üzrə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş proqram (kurikulum) üzrə kurs keçməsi;
- peşə-ixtisas fənn müəllimlərinin və istehsalat təlim ustalarının peşələrinə uyğun 3 ildən bir müəssisə və təşkilatlarda yeni texnika və texnologiyalar üzrə istehsalat təcrübəsi keçməsi.

Nazirlər Kabinetinin 31 oktyabr 2011-ci il tarixli 178 nömrəli qərarı ilə ilk peşə-ixtisas təhsili pilləsi üzrə 216 ixtisas qrupu daxilində 712 ixtisas təsdiq edilmişdir. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu tərəfindən qeyd edilən ixtisas qrupları üzrə milli kurikulumlar hazırlanır və Təhsil Nazirliyi tərəfindən təsdiq edilir. Təlim nəticələri əsasında yeni kurikulumların hazırlanması istiqamətində işlər aparılır.

Təhsil Problemləri İnstitutu tərəfindən mövcud standartlara uyğun olaraq müxtəlif ixtisas qrupları üçün 40 pilot kurikulum, beynəlxalq təşkilatların dəstəyi ilə isə əlavə 16 kurikulum hazırlanmışdır. Belə ki, Avropa İttifaqının (Aİ) Azərbaycan Respublikasında kənd təsərrüfatı sahəsində ilk peşə təhsilinin möhkəmləndirilməsi üzrə Tvinninq layihəsi çərçivəsində (Kənd təsərrüfatı sahəsində ilk peşə-ixtisas təhsili üzrə Almaniya-Azərbaycan Tvinninq Əməkdaşlığı) kənd təsərrüfatı üzrə 7 kurikulum, "Peşə təhsili və təlimi sahəsində islahatlar strategiyası vəAzərbaycanın seçilmiş rayonunda pilot icrası" layihəsi çərçivəsində Aİ-nin dəstəyi ilə British Council təşkilatının rəhbərlik etdiyi konsorsium tərəfindən turizm və qonaqpərvərlik sektoru üzrə 5 kurikulum, Təhsil Nazirliyinin metodologiyası əsasında UNESCO-nun dəstəyi ilə 2 kurikulum (Otel administratoru və Kompüter operatoru) və World Vision təşkilatının dəstəyi ilə 2 kurikulum (Təmirçi-çilingər və elektrik qaynaqçısı) hazırlanmışdır.

Təhsil Problemləri İnstitutunun istifadə etdiyi metodologiyaya uyğun olaraq hazırlanmış 44 kurikulum aşağıdakı struktura malikdir:

- ümumi orta təhsil bazasında həyata keçirilən ilk peşə-ixtisas təhsili üçün nümunəvi tədris planı (dərs yükü);
- tam orta təhsil bazasında həyata keçirilən ilk peşə-ixtisas təhsili üçün nümunəvi tədris planı (dərs yükü);
- ixtisasların təsnifatı ilə əlaqə (kodlaşma);
- ixtisas qrupu;

- ixtisas;
- əhatə olunan iqtisadi fəaliyyət növləri;
- vəzifələr;
- peşə səriştələri (bilik, bacarıq və səriştələr);
- qəbul tələbləri;
- təhsilin müddəti;
- imtahan (ilk peşə-ixtisas təhsili şagirdlərinin attestasiyası qaydalarına, o cümlədən yekun qiymətləndirmə qaydalarına istinad);
- peşə üzrə xüsusi tələblər;
- əhatə olunan modullar;
- ixtisasın modul strukturu (təhsil müddəti üzrə);
- baza modullar və təlim nəticələri.

Kurikulumların hər modulunda bir neçə təlim nəticəsi qeyd edilir. Sonuncularda, həmçinin, bir sıra fəaliyyətlər (standartlar) də əks olunmuşdur. Hər bir təlim nəticəsi və tapşırıq üzrə tədris saatlarının ümumi miqdarı, o cümlədən nəzəri dərslər və praktiki məşğələlər müəyyən olunur.

Kurikulumlarda təlim nəticələrinin qiymətləndirməsi məqsədilə qiymətləndirmə vərəqələri hazırlanmışdır. Vərəqələrdə "Bəli" (təhsilalan tapşırığı yerinə yetirə bildiyi təqdirdə işarələnir) və "Xeyr" (təhsilalan tapşırığı yerinə yetirə bilmədiyi təqdirdə işarələnir) cavablarının göstərildiyi bir neçə praktiki tapşırıq, eləcə də qeydlər və 4 cavab variantının olduğu qapalı test sualları qeyd olunur. Həm praktiki, həm də nəzəri tapşırıqlar qiymətləndirməni aparan şəxs tərəfindən imzalanır və tarix qoyulur.

Məsələn, moda dizayneri üçün kurikuluma aşağıdakı modullar daxildir: (A) Moda üslubunun seçilməsi; (B) Geyim komponentlərinin yaradılması; (C) Paltarın eskizinin çəkilməsi; (D) Paltarın strukturunun yaradılması; (E) Paltarın hissələrinin ölçülməsi; (F) Paltarın hazırlanması; (G) Profilaktik tədbirlərin görülməsi, sağlamlıq və təhlükəsizlik qaydalarına riayət edilməsi.

A modulu 3 təlim nəticəsini əhatə edir: (A1) Təyinatı üzrə moda üslubunun seçilməsi; (A2) Fəsil və materialların texniki xüsusiyyətləri əsasında moda üslubunun seçilməsi; (A3) Cins və yaş amilləri üzrə moda üslubunun seçilməsi. Birinci təlim nəticəsi 63 saat ərzində əldə edilir – 7 saat nəzəri dərslər üçün və 56 saat praktiki məşğələlər üçün. Tədris saatlarının bölgüsü aşağıdakı kimidir:

| Təlim nəticəsi üzrə fəaliyyətlər (standartlar) (A1) | Tədrisin məzmunu (nəzəri biliklər) | Dərs saatları (nəzəri) | Tədrisin məzmunu (praktiki bacarıqlar) | Dərs saatları (praktiki məşğələlər) | Resurslar |
|---|---|---|---|---|---|
| A1.1. Geyim ilə bağlı tələbləri və təsnifatları bilir və nümunələr üzrə biliklər nümayiş etdirməklə şərhlər verir | Geyimin tarixi, geyim ilə bağlı tələblər, geyimin təsnifatı | 4 | Geyim nümunələrinin göstərilməsi, geyimə olan tələblər və paltarların təsnifatı barədə şərhlərin verilməsi | 21 | Vərəqələr, geyim nümunələri, geim mağazaları<br><br>Mündəricat |
| A1.2. Geyimin təyinatı və təyinat üzrə | Geyimin tarixi, geyim ilə bağlı | 3 | Geyimin təyinatı üzrə modelin | 35 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| modelin seçilməsi qaydaları barədə məlumatlıdır, təyinat üzrə geyim modelini seçir | tələblər, geyimin təsnifatı | | seçilməsi qaydalarına uyğun olaraq paltarın modelinin seçilməsi | | |

Təlim nəticəsinin (A1) qiymətləndirilməsi üçün praktiki tapşırıqlar aşağıdakılardan ibarətdir:

- geyimin təsnifatına uyğun olaraq gündəlik geyimlərin seçilməsi və nümayiş etdirilməsi;
- geyimin təsnifatına uyğun olaraq idman geyimlərinin seçilməsi və nümayiş etdirilməsi;
- geyimin təsnifatına uyğun olaraq rəsmi geyimlərin seçilməsi və nümayiş etdirilməsi;
- geyimin təyinatina uyğun olaraq idman geyimləri üçün modelin seçilməsi.

Yuxarıdakı nümunədən göründüyü kimi, uğurlu təhsilalan peşə ilə bağlı nəzəri və praktiki biliklərə malik olur; işlə bağlı geniş bilikləri şərh edir və əlaqələndirir, onları yeni vəziyyətlərdə istifadə edir; verilmiş vaxt çərçivəsində əsas vəzifə tapşırıqlarını yerinə yetirir; işin məzmununda müvafiq dəyişiklərə təşəbbüs göstərir, onları hazırlayır, uyğunlaşdırır, müvafiq planlara uyğun olaraq işi effektiv və səmərəli şəkildə təşkil edir. Bu və digər diskriptorlar AzKÇ-nin 3-cü səviyyəsindən götürülmüşdür. Bütün digər kurikulumlarda olan təlim nəticələri də AzKÇ-nin 3-cü səviyyəli diskriptorlarına uyğundur. Bütün ixtisaslar üzrə diskriptorlara xarici dil və İKT daxildir ki, buna da çərçivə layihəsinin 4-cü səviyyədən olan diskriptorunda rast gəlinmir. Lakin 3-illik peşə təhsili ilk peşə-ixtisas təhsili haqqında diplomla yanaşı, tam orta təhsil haqqında attestat[1] da verir ki, bu da AzKÇ-nin 4-cü səviyyəsinə uyğundur.

İlk peşə-ixtisas təhsili kurikulumlarında, həmçinin, ümumi fənlər (nitq mədəniyyəti, gənclərin çağırışaqədərki hazırlığı, İKT, xarici dil, peşə üzrə hesablama əməliyyatları, Azərbaycan qanunvericiliyinin əsasları, fiziki tərbiyə, bazar iqtisadiyyatı və sahibkarlığın əsasları və s.) üzrə proqramlar (kurikulumlar), ilk peşə-ixtisas təhsili sistemində pedaqoji prosesin təşkili və ilk peşə-ixtisas təhsilində təlim nəticələrinin monitorinqi və qiymətləndirilməsi əhatə edilir.

Şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsi İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartına uyğun olaraq həyata keçirilir və qiymətləndirmənin ənənəvi formalarından fərqli olaraq (sinifdəki şagirdlərin nailiyyətlərinin müqayisə edilməsi), burada əsas diqqət səriştələrə yönəldilir. Lakin mövcud standartlar kimi, pilot kurikulumda da müstəqil ekspertlər tərəfindən bitərəf qiymətləndirmənin aparılması üçün heç bir çərçivə müəyyən edilməmişdir.

Aİ-nin Tvinninq layihəsi çərçivəsində Təhsil Problemləri İnstitutu ilə birgə hazırlanmış kurikulumlar peşə təhsili standartları adlanır. Onlar nazirlik (Təhsil Problemləri İnstitutu) tərəfindən hazırlanmış pilot kurikulumlar ilə müqayisədə eyni struktura malikdir, o cümlədən, ümumi fənlər də eynidir. Lakin onlar arasında əhəmiyyətli fərqlər də mövcuddur. Belə ki, onlar ixtisas qrupları üzrə deyil, ayrıca ixtisaslar / peşələr üzrə hazırlanmışdır. Burada peşə üzrə səriştələr Avropa Kvalifikasiya Çərçivəsi ilə əlaqələndirilmişdir. Eyni zamanda, imtahan ilə bağlı bölmədə təhsil standartlarına istinad edilmir, əvəzində imtahanın təşkili məsələləri əks etdirilir. Burada qeyd olunur ki, tədris ilinin sonunda yazılı və şifahi buraxılış imtahanı təşkil edilir. Yazılı və şifahi hissədən ibarət buraxılış imtahanı tədrisin ümumi məzmunu əhatə edir və daha çox praktik yönümlü olur. Burada həmçinin, imtahanın müvafiq sahə üzrə ixtisaslaşmış biznes nümayəndələrinin də daxil olduğu komissiya tərəfindən götürüldüyü qeyd olunur.

---

[1] Tam orta təhsil üçün təlim nəticələri ayrıca qiymətləndirilir və müvafiq olaraq, 4-cü səviyyə kvalifikasiyasına uyğun attestat verilir.

Digər fərq isə tədris planı ilə bağlıdır ki, burada tədrisin 50%-nin məktəbdə və 50%-nin istehsalat müəssisəsində həyata keçirilməsi təklif olunur. Layihə tərəfindən hazırlanmış bütün kurikulumlarda nəzəri dərslər tədris saatlarının ən az hissəsini təşkil edir. Praktiki məşğələlər üçün saatlar bundan çox, istehsalat təcrübəsi isə daha artıq müəyyən edilir.

Layihə çərçivəsində hazırlanmış standartlarda praktiki qiymətləndirmə, yazılı yoxlama sualları, pedaqoji prosesinin təşkili, eləcə də təlim nəticələrinin monitorinqi və qiymətləndirilməsi əhatə olunmamışdır. Əvəzində, layihə tərəfindən Modul tipli təhsil proqramlarının (kurikulum) tətbiqi ilə bağlı tədris prosesinin təşkili qaydaları (təlimat) hazırlanmışdır. Sənəddə nəzəri məşğələlərin, praktiki çalışmaların və təcrübələrin təşkili, pedaqoji prosesin həyata keçirilməsi, müəssisələr ilə əməkdaşlıq, həftəlik dərs yükü, eləcə də təhsilalanların bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi üçün təlimatlar əks olunur. Layihə çərçivəsində təcrübə keçmək üçün müqavilə nümunəsi, təcrübə prosesi üçün yoxalma vərəqəsi və təcrübə keçən şəxslər üçün qiymətləndirmə forması hazırlanmışdır.

"Peşə təhsili və təlimi sahəsində islahatlar strategiyası və Azərbaycanın seçilmiş rayonunda pilot icrası" layihəsi çərçivəsində hazırlanmış kurikulumlar peşə bacarıqları üzrə müxtəlif modulları əhatə edir ki, onların da hər biri aşağıdakı struktura malikdir:

- səviyyə;
- kredit dəyəri;
- qəbul şərtləri;
- modul haqqında məlumat;
- təlimin nəticələri;
- icra meyarları (hər bir təlim nəticəsi üzrə);
- açıqlama[2]; və
- tələb olunan sübutlar.

Eyni zamanda, bəzi modullarda köməkçi qeydlər də verilmişdir ki, burada təqribi təhsil müddəti, məqsəd, məzmun / kontekst, Sübutların yığılması sahəsində yanaşmalar, qiymətləndirmə prosedurları, tanınma, istinadlar və xüsusi ehtiyaclar qeyd olunur.

Nazirlər Kabinetinin 19 yanvar 2010-cu il tarixli 11 nömrəli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili üzrə ixtisasların təsnifatı"na uyğun olaraq, sözügedən təhsil pilləsində 156 ixtisas var. Təhsil Nayirliyində yaradılan və Təhsil Problemləri İnstitutunun mütəxəssislərinin də daxil olduğu işçi qrupları tərəfindən qeyd edilən ixtisaslar üzrə milli kurikulumlar hazırlanmış və nazirlik tərəfindən təsdiq edilmişdir.

İlk peşə-ixtisas təhsili pilləsinin kurikulumları kimi, subbakalavr təhsili pilləsinin müxtəlif ixtisaslar üzrə təhsil proqramları (kurikulumları) da məzmun standartları, fənlər, həftəlik dərs yükü, dərsdənkənar məşğələ saatlarını əhatə edir. Təhsil proqramlarının strukturu aşağıdakı kimi müəyyən olunur:

- ümumi müddəalar;
- məzunların ixtisas xarakteristikaları və səriştəliliyi;
- təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər;

---

[2] Qeyd: bu, əhatə dairəsi ilə bağlı qeyd kimi qəbul edilə bilər.

- maddi-texniki, tədris bazası və kadr potensialı;
- tədris prosesinin forma və metodları;
- yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə.

Həm ilk peşə-ixtisas təhsili, həm də orta ixtisas təhsili pilləsi üçün standartlarda təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi üzrə bölmə var. Lakin onun məzmunu tamamilə fərqlənir. Belə ki, ilk peşə-ixtisas təhsili standartının bu bölməsində ümumi təlim nəticələrini əhatə edildiyi halda, orta ixtisas təhsili pilləsinin standartında təlim nəticələri barədə heç bir qeyd yoxdur. Əvəzində, sonuncu təhsilalanların biliyinin qiymətləndirilməsi prinsiplərini əks etdirir. İlk peşə-ixtisas təhsili pilləsinin standartından fərqli olaraq, subbakalavr təhsili pilləsinin standartında müxtəlif ixtisaslar üzrə təlim nəticələri də əks olunmamışdır. Subbakalavr təhsili məzunları üçün təlim nəticələri müxtəlif ixtisaslar üzrə hazırlanmış təhsil proqramlarında verilmişdir.

Orta ixtisas təhsili pilləsində üç fənn bölümü nəzərdə tutulur: (i) humanitar fənlər; (ii) ümumtəhsil fənləri (ümumi orta təhsil bazasından təhsil alanlar üçün); və (iii) ixtisasın peşə hazırlığı fənləri.

Tam orta təhsil bazasından təhsilalanların ümumi auditoriya saatlarının 20-25 faizi — humanitar, 75-80 faizi isə peşə hazırlığı fənlərinin tədrisinə ayrılır.

Ümumi orta təhsil bazasından təhsilalanların ümumtəhsil fənlərinin həcmi ümumi saatların 30-40 faizini təşkil edir.

Humanitar fənn bölümünə məcburi fənlər kimi “Azərbaycan tarixi”, “Azərbaycan dili” (xarici dildə təhsil alanlar üçün), “Xarici dil” fənləri daxildir.

Orta ixtisas təhsili üzrə təhsil proqramlarının bütün fənn bölümlərinə seçmə fənlər daxildir. Proqramlarda seçmə fənlərə ayrılan saatın həcmi ümumi saat həcminin 15-20 faizini təşkil edir. Həmin fənlər təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir.

Mövcud standartlara əsasən, orta ixtisas təhsili pilləsində təkrar orta ixtisas təhsili alanlar üçün ixtisaslar üzrə təhsil proqramlarına uyğun qısaldılmış proqramlar da tətbiq edilə bilər. Qısaldılmış təhsil proqramlarına yalnız ixtisasın peşə hazırlığı fənləri daxil edilir.

Orta ixtisas təhsili müəssisələrində tədris prosesi Avropa Kredit Transfer Sisteminə uyğun olan kredit sistemi əsasında təşkil olunur. Subbakalavr təhsil pilləsi üzrə bir tədris ilinin müddəti 40 həftədən ibarət olduğu halda, bütün təlim müddətində istehsalat təcrübəsi üçün nəzərdə tutulan müddət 8-20 həftədir.

Orta ixtisas təhsilində kredit sisteminin tətbiqi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 26 dekabr tarixli 354 nömrəli qərarı ilə təsdiq edilmiş “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” ilə tənzimlənir. Qaydalara əsasən, bir semestrə 30 kredit müəyyənləşdirilir. Bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Avropa Kredit Transfer Sistemində öyrənmə (təlim) nəticələri iş həcminin qiymətləndirilməsi və kreditlərin müəyyən edilməsi üçün əsas sayılsa da, “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nda belə bir qeyd yoxdur.

Kreditlər tələbənin aşağıdakı fəaliyyəti üzrə müəyyənləşdirilir:

- auditoriya (mühazirə, seminar, praktik məşğələlər, laboratoriya) dərslərində iştirak etməsi;
- auditoriyadankənar işi (tələbənin müstəqil və müəllimin rəhbərliyi ilə sərbəst işi);
- təcrübələrdə iştirak etməsi;

- laboratoriya işlərini yerinə yetirməsi;
- kurs işini və layihələrini hazırlaması və müdafiəsi;
- imtahanlara hazırlığı və imtahanları verməsi;
- buraxılış işini hazırlaması və müdafiəsi, eləcə də yekun dövlət attestasiyasına hazırlığı və imtahan verməsi.

Hazırda təhsil müəssisələrində tədris olunan subbakalavr hazırlığı üzrə 115 ixtisas üzrə Təhsil Nazirliyi tərəfindən hazırlanmış və təsdiq edilmiş təhsil proqramları aşağıdakıları əhatə edir:

- İxtisasların təsnifatı ilə əlaqə (kodlaşma);
- İxtisasın adı;
- Ümumi müddəalar;
- Əyani və qiyabi formalar üzrə təhsil müddəti;
- Məzunun ixtisas xarakteristikası və kompetensiyasına (ümumi və peşə kompetensiyalarına) qoyulan tələblər;
- Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər:
    - Məzunun peşə fəaliyyətinin xarakteristikası;
    - Ümumi fənlər bölümü üzrə tədris planı (dərs saatları);
    - İxtisas üzrə fənn bölümləri. Humanitar və ixtisasın peşə hazırlığı fənn bölümləri, həmçinin təcrübələr və yekun attestasiya üzrə təlim nəticələrini (bilik və bacarıqları) və fənlər üzrə kreditlərin sayını əhatə eddir;
- Maddi-texniki, tədris bazası və kadr potensialı;
- Tədris prosesinin forma və metodları;
- Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə. Burada ümumi tələblər müəyyən edilir, attestasiyanın təşkili və keçirilməsi qaydalarının Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirildiyi qeyd olunur.

Göründüyü kimi, orta ixtisas təhsili kurikulumları ilk peşə-ixtisas təhsili kurikulumları ilə oxşar struktura malikdir. Mühüm fərqlər orta ixtisas fənləri üzrə kredit həcminin müəyyən olunması və qiymətləndirmə nümunələrinin müəyyən olunmamasıdır.

## 2.2. İlk peşə-ixtisas təhsili və orta ixtisas təhsilində peşə standartları

Dünya Bakının "Təkmilləşdirilmiş Peşə Standartları" (DIOS) layihəsi, eləcə də digər layihələr çərçivəsində hazırlanmış peşə standartları Təhsil Nazirliyi tərəfindən ilk peşə-ixtisas təhsili və təlimi üzrə pilot kurikulumların hazırlanması zamanı geniş şəkildə istifadə olunur. Bu yolla ilk peşə-ixtisas təhsili üzrə yeni tədris proqramlarında əmək bazarının ehtiyacları nəzərə alınmış olur. İlk peşə-ixtisas təhsili üzrə yeni kurikulumlardakı təlim nəticələri peşə standartlarında peşələr üzrə müəyyən edilmiş səriştələrə əsaslanır.

Orta ixtisas təhsili ixtisaslarına uyğun olan peşə standartlarının mövcudluğuna baxmayaraq, hazırkı dövrə qədər onlardan təhsilin sözügedən pilləsinin əmək bazarının ehtiyaclarına uyğunlaşdırılması məqsədilə istifadə edilməmişdir. Qeyd etmək lazımdır ki, peşə standartlarının sayı məhduddur. Belə ki,

bu günə qədər müxtəlif layihələr çərçivəsində təhsilin bütün səviyyələrini əhatə edən peşələr / ixtisaslar üzrə 230-a qədər peşə standartı hazırlanmışdır. DİOS layihəçi çərçivəsində hazırlanmış 200 peşə standartından 102-si ilk peşə-ixtisas təhsili pilləsində, 38-i isə subbakalavr pilləsində təhsil tələb edən peşələri əhatə edir.

Bütün peşə standartları işçilərdən tələb olunan ümumi və xüsusi səriştələri əks etdirir. Ümumi səriştələr ümumtəhsil fənləri üzrə, xüsusi səriştələr isə müvafiq ixtisas üzrə peşə təhsili fənləri üzrə təlim nəticələrinin müəyyən edilməsində istifadə oluna bilər.

## 2.3. Əsas nəticələr, o cümlədən AzKÇ tələblərinə cavab vermək üçün mövcud kvalifikasiya növü diskriptorlarının necə və nə üçün dəyişdirilməli olduğunun qiymətləndirilməsi

Yuxarıda verilmiş məlumatlardan göründüyü kimi, dövlət təhsil standartları elmi-pedaqoji prinsiplər əsasında hazırlanmışdır. Standartların iqtisadiyyatın tələbatına uyğun hazırlanması da vacib məsələlərdəndir. Təhsilin iqtisadiyyatın ehtiyaclarına uyğunlaşdırılması məqsədilə standartlarda təsərrüfat subyektləri ilə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi məqsədəuyğun olardı.

Əmək bazarının ehtiyaclarının qarşılanması baxımından, ideal şəraitdə, əmək bazarında mövcud hər bir peşə üzrə kvalifikasiya standartının olması arzuolunandır. Lakin bu yanaşma xərc tutumludur və formal təhsil sistemi onların hamısını əhatə etməyə bilər. Digər tərəfdən, ayrıca peşələrə istiqamətlənmə işçi qüvvəsinin hərəkətliliyi və məşğulluğunun təmin edilməsi baxımından çətinliklər yaratmaqla yanaşı, fərdlərin və ümumilikdə cəmiyyətin gələcək ehtiyaclarına cavab verməyə bilər. Bu səbəbdən də kvalifikasiya standartlarının sayı cəmiyyətin malik olduğu iqtisadi və təlim resurslarından asılıdır. Onlar çox zaman dövlət və cəmiyyət tərəfindən prioritetləşdirilir ki, bu da müəssisələrin geniş səriştələrə olan ehtiyaclarının qarşılanmasına xidmət edən mümkün qədər çox sayda peşənin əhatə edildiyi məqbul həcmdə təlimlərin təklif edilməsinə imkan verir. Hal-hazırda, Təhsil Nazirliyi ixtisas qrupları (məsələn, “Bərbər”, “Dülgər, parket istehsalı”, “Mühasibatlıq”, “İctimai iaşə xidmətləri” və s.) üçün Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu tərəfindən hazırlanmış təhsil standartları və proqramlarının (kurikulumların) seçilmiş ilk peşə-ixtisas təhsili müəssisələrində maraqlı tərəflərin iştirakı ilə pilot tətbiqini həyata keçirir. Gələcəkdə bütün ixtisas qrupları üzrə təhsil standartları və kurikulumlar hazırlanacaqdır. İşçi qüvvəsinin, işəgötürənlərin, cəmiyyətin və dövlətin maraqlarını nəzərə almaq üçün kvalifikasiya standartlarının müəyyən edilməsi bütün maraqlı tərəflərin cəlb olunduğu iştirak prosesi vasitəsilə həyata keçirilməlidir. Effektivliyin təmin edilməsi baxımından, standartların hazırlanması üçün ixtisas qrupları prioritetləşdirilməlidir. Təhsil müəssisələri bu standartlar əsasında çatışmayan modulları özləri əlavə etməklə, təhsil proqramlarını (kurikulumları) hazırlaya bilər.

Səriştələr (bilik və bacarıqlar) üzrə olan tələbata cavab verməsi üçün standartlarda müvafiq dəyişiklər edilməlidir. Bu həmçinin, kvalifikasiya standartlarının və kurikulumların hazırlanması zamanı peşə standartlarından istifadəyə imkan yaradacaqdır. Keyfiyyəti təmin etmək məqsədilə, ilk peşə-ixtisas təhsili pilləsi üçün ümumiləşdirilmiş təlim nəticələri AzKÇ çərçivəsində 3 və 4-cü səviyyələrin diskriptorlarına, orta ixtisas təhsili pilləsi üçün isə 5-ci səviyyənin diskriptorlarına uyğun olmalıdır. Təlim nəticələri təsərrüfat subyektlərinin təmsilçilərinin üstün səs hüququna malik olduğu qruplar tərəfindən hazırlanmalıdır. Standartlarda fərdlərin səriştələrinin (təlim nailiyyətlərinin) qiymətləndirilməsi və təsbit edilməsi məsələləri digər sənədlərə istinad edilmədən aydın şəkildə əks olunmalıdır.

Standartlarda həmçinin, alternativ yollar, o cümlədən Təhsil haqında Qanuna uyğun olaraq qeyri-formal və informal təlimin tanınması vasitəsilə kvalifikasiyaların əldə edilməsi ilə bağlı müddəalar da əhatə olunmalıdır.

İlk peşə-ixtisas təhsili sistemində təhsilverənlərin keyfiyyət göstəricilərində müvafiq peşə sahəsi üzrə istehsalat təcrübəsi ilə bağlı tələblərin aydın şəkildə əks etdirilməsi və alternativ variant kimi pedaqoji

təcrübənin təklif edilməməsi məqsədəuyğun olar. Digər keyfiyyət göstəricilərində pedaqoji təcrübə əhatə olunur. Bu, iqtisadiyyatın tələbatının təhsil sistemində daha yaxşı əks olunmasına xidmət edəcəkdir.

Subbakalavr pilləsi üzrə standartlar təhsilin aşağı və yuxarı pilələri ilə əlaqələri əks etdirdiyi halda, ilk peşə-ixtisas təhsili pilləsinin standartında yalnız aşağı səviyyə ilə əlaqə qeyd edilir. İlk peşə-ixtisas təhsili ilə subbakalavr və bakalavr təhsili pillələri arasında əlaqənin göstərilməsi vacibdir.

İstifadəçi baxımdan əlverişli strukturun və şəffaflığın təmin edilməsi baxımından kvalifikasiya standartlarında digər normativ-hüquqi sənədlərə istinadların həcmi minimum səviyyəyə endirilməli və bütün müvafiq tələblər bir sənəddə yer almalıdır.

İlk peşə-ixtisas təhsili pilləsinin standartında ümumi təhsil pilləsinin standartı ilə müqayisədə təlim və qiymətləndirmə ilə bağlı fərqli yanaşmalar müəyyən edilməlidir. Müstəqil ekspertlərin (müəssisələrdən) təlim prosesinə və şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsinə cəlb edilməsi təhsilin əmək bazarının ehtiyaclarına uyğun qurulması baxımından böyük əhəmiyyət kəsb edir.

Subbakalavr pilləsi üçün dövlət təhsil standartında təhsilalanların bilik və bacarıq səviyyəsi üzrə bölmə əhatə olunsa da, burada yalnız biliklərin qiymətləndirilməsi ilə bağlı prinsip və metodologiya təqdim edilir. AzKÇ-nin 5-ci səviyyəsi üzrə diskriptorlara uyğun olan təlim nəticələri, habelə təhsilalanların əldə etdikləri bacarıqların qiymətləndirilməsi üçün üsul və metodlar kvalifikasiya standartlarının ayrılmaz tərkib hissəsi olmalıdır.

Qeyd edilən boşluqlar səbəbindən mövcud standartlar nəzəri təhsilin praktiki təlimlər üzərində üstünlük təşkil etməsinə gətirib çıxarır ki, bu da əmək bazarında bacarıqların uyğunsuzluğu ilə nəticələnir. Bu səbəbdən də, təsərrüfat subyektlərinin ehtiyacları kvalifikasiya standartlarına daxil edilməli və bununla da, təlim nəticələrinin və qiymətləndirmə meyarlarının həmin tələblərə cavab verməsi təmin olunmalıdır.

Mövcud standartlarda həm ilk peşə-ixtisas təhsili, həm də subbakalavr təhsili pillələrində əmək bazarından daxil olan şəxslər üçün qısaldılmış kurslar nəzərdə tutulur. Lakin onlar “ömürboyu təhsil” kimi nəzərdən keçirilmir. Ali təhsil standartında isə ömürboyu təhsil üçün müvafiq imkanlar müəyyən edilmişdir (aşağıda daha geniş şəkildə baxılacaqdır).

Layihələr çərçivəsində hazırlanmış kurikulumlar Təhsil Nazirliyinin hazırladığı kurikulumlar ilə müqayisədə müəyyən fərqli cəhətlərə malikdir. Onların hər ikisində AzKÇ tələblərinə uyğun kvalifikasiya üzrə diskriptorların hazırlanması məqsədilə istifadə edilə bilən müsbət nümunələr vardır. Məsələn, layihələrin dəstəyi ilə hazırlanmış kredit vahidi, imtahan və təcrübə ilə bağlı yanaşmalar, eləcə də dəlillərin toplanması tələbləri bu məqsədlə istifadə edilə bilər. Təhsil Problemləri İnstitutu tərəfindən hazırlanmış ilk peşə-ixtisas təhsili kurikulumlarında əks olunan qiymətləndirmə sualları təlimat rolunu oynaya bilər. Lakin onlardan real imtahanlar zamanı istifadə etmək düzgün deyildir. Buna səbəb onların ictimaiyyət üçün açıq olmasıdır. Əvəzində, səriştələrin tanınması ilə bağlı standart yanaşmanın tətbiqini təmin etmək üçün təlim nəticələri üçün qiymətləndirmə meyarları daxil edilməlidir. “Peşə təhsili və təlimi sahəsində islahatlar strategiyası və Azərbaycanın seçilmiş rayonunda pilot icrası” layihəsi çərçivəsində fəaliyyət meyarları başlığı altında müqayisə oluna bilən meyarlar hazırlanmışdır.

Subbakalavr hazırlığı üzrə təhsil proqramlarının hazırlanması zamanı peşə standartlarından istifadəyə ehtiyac var. Bu kurikulumlarda ixtisas fənləri üçün olduğu kimi, ümumi fənlər üçün də kredit həcmi müəyyən edilməlidir. Bu, təhsil pillələri arasında keçidin və eyni təhsil pilləsində akademik mobilliyin daha yaxşı təmin edilməsinə xidmət edəcəkdir.

İlk peşə və orta ixtisas təhsilində çevikliyi təmin etmək məqsədil ə müəyyən səriştələrə malik şəxslərin müvafiq təhsil pillələrinə çıxış imkanlarının sadələşdirilməsi üçün qəbul tələblərinə dəyişiklər

edilməlidir. Kvalifikasiya standartları əvvəlki təlimlərin tanınmasını əhatə etməlidir. Təlim nəticələrinin qiymətləndirilməsinə standart yanaşma bu məqsədə xidmət edə bilər.

# 3. Ali təhsildə kvalifikasiya standartları və kurikulumlar

Ali təhsil üzrə hazırkı kvalifikasiya standartı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş Ali təhsil pilləsinin dövlət standartı və proqramıdır. O yuxarıda qeyd edilən digər təhsil səviyyələri üzə mövcud olan dövlət standartlarda olduğu kimi eyni struktura malikdir. Sözügedən standartlar verilmiş müddət çərçivəsində baza ictimai tələbləri əks etdirən ümumi normaların məcmusundan ibarədir. Standart 6 il müddəti üçün müəyyən olunmuşdur.

Ali təhsilin məqsədi müxtəlif ixtisas sahələri üzrə cəmiyyətin və əmək bazarının tələblərinə uyğun olaraq yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

Ali təhsil üzrə dövlət standartları da təhsilin məzmunu və təşkili ilə bağlı orta ixtisas təhsili standartlarında olduğu kimi eyni minimum tələbləri müəyyən edir. Yeganə fərq ondan ibarətdir ki, standartlara əsasən ali təhsil hər bir şəxs üçün ömür böyü təhsilə açıq və bərabər çıxış imkanını təsbit edir. Digər standartlarda isə ömür boyu təhsil ilə bağlı heç bir qeyd yer almamışdır. Ömür boyu təhsil bakalavr pilləsində qısaldılmış əlavə təhsil proqramlarının tətbiq edilməsi ilə əhatə olunur.

Ali təhsil müəssisəsinin ali idarəetmə orqanı Elmi Şuradır. Elmi Şuranın yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş "Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında" Əsasnamə və təhsil müəssisəsinin nizamnaməsi ilə tənzimlənir.

Azərbaycanda ali təhsil bakalavr, magistr və doktorantura səviyyəsində həyata keçirilir. Bakalavr və magistr dərəcələri tibb təhsilinə şamil olunmur. Bakalavriat səviyyəsində əyani forma üzrə təhsil müddəti 4-5 ildir və qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır. Magistratura səviyyəsində əyani forma üzrə həmin müddət 1,5-2 ildir (qiyabi forma üzrə təhsil müddəti altı ay artıqdır). Standart doktorantura pilləsi üzrə təhsil müddətini müəyyən etmir.

Orta ixtisas təhsili standartlarında olduğu kimi ali təhsil üzrə standartlar da təhsilverənlərin keyfiyyət göstərcilərinin müəyyən edilməsi Nazirlər Kabineti tərəfindən təsdiq olunan attestasiya qaydalarına istinad olunur. Burada həmçinin, təhsilalanların biliklərin qiymətləndirilməsi nəzərə alınsa da, bacarıqların qiymətləndirilməsi prinsip və metodları barədə söz açılmır.

Ali təhsil proqramları (kurikulumlar) orta ixtisas təhsilində olduğu kimi, eyni struktura malikdir. Eyni zamanda, həm bakalavr, həm də magistr dərəcələri üzrə icbari və seçmə fənlər mövcuddur. Ümumi tədris saatlarının 25-30%-i təhsil müəssisələri tərəfindən müəyyən edilən seçmə fənlərə ayrılır.

Ali təhsil müəssisələrində təlim prosesi Avropa Kredit Transfer Sisteminə uyğun olaraq kredit sistemi əsasında təşkil olunur. Kredit sistemi ilə tədrisin təşkili qaydaları Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmişdir. Bu qaydalar orta ixtisas təhsili pilləsi üçün təsdiq olunmuş müvafiq qaydalarla uyğundur və demək olar ki, eyni tələbləri nəzərdə tutur. Həm "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nda, həm də "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nda təhsil krediti fənnin mənimsənilməsinə ayrılan vaxtın ölçü vahidi kimi müəyyən edilir və təlim nəticələri ilə əlaqələndirilmir.

## 3.1. Kvalifikasiya standartı və bakalavr kurikulumu

Ali təhsil üzrə dövlət standartına əsasən bakalavr təhsili pilləsində iki fənlər qrupu nəzərdə tutulur: (i) humanitar; və (ii) ixtisas üzrə peşə təlimi fənləri. Sonuncu müvafiq ixtisas sahəsində qaşıya çıxa biləcək standart və qeyri-standart mələlərin həlli üçün zəruri olan bilik, bacarıq və vərdişlərin mənimsənilməsini təmin etməlidir.

Ümumi auditoriya saatlarının 15-20%-i humanitar fənlərin, 80-85%-i isə peşə hazırlığını təmin edən fənlərin tədrisinə ayrılır.

Humanitar fənn bölümünə məcburi fənlər kimi "Azərbaycan tarixi", "Azərbaycan dili" (xarici dildə təhsil alanlar üçün), "Xarici dil" fənləri daxildir.

Mövcud standartlara əsasən, Bakalavr pilləsində təkrar ali təhsil alanlar üçün ixtisaslar üzrə təhsil proqramlarına uyğun qısaldılmış proqramlar da tətbiq edilə bilər. Qısaldılmış təhsil proqramlarına yalnız ixtisasın peşə hazırlığı fənləri daxil edilir.

Nazirlər Kabinetinin 24 iyun 2010-cu il tarixli qərarı ilə təsdiq edilmiş Bakalavr təhsilinin məzmunu və təşkili qaydaları sözügedən təhsil pilləsində tədrisin tənzimlənməsi məqsədilə istifadə edilən digər bir normativ-hüquqi sənəddir. O Ali təhsilin dövlət standartına əsaslanır. Qaydalar qəbul tələblərini, ali təhsilin məzmunu və təşkili ilə bağlı tələbləri, təhsil müddətini, təhsil formalarını (mühazirə, seminar, laboratoriya işi və s.) və məzunların mənimsəməli olduqları minimum səriştələri müəyyən edir.

Mövcud təsnifat (Nazirlə Kabinetinin 12 yanvar 2009-cu il tarixli qərarı ilə təsdiq edilmişdir) Bakalavr təhsili pilləsi üzrə 143 ixtisası əhatə edir. Təhsil Problemləri İnstitutunun işçi qrupu tərəfindən hazırlanmış və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş kurikulumlar əvvəllər təlim nəticələrinə əsaslanmasa da, humanitar və peşə-ixtisas fənləri üzrə bilik və bacarıqlar üçün minimum tələbləri əhatə edirdi. Hazırda təlim nəticələrinin daxil edilməsi məqsədilə sözügedən kurikulumlar Nazirlik tərəfindən yenilənir. Nazirliyin rəsmi şəxslərinin verdikləri məlumata əsasən yeni kurikulum bir neçə müəssisənin nümayəndələrinin də daxil olduğu işçi qrupu tərəfindən hazırlanmış təlim nəticələrini də əhatə edir.

Yeni kurikulum ümumi və xüsusi səriştələr, eləcə də fənn qrupları üzrə məzunların bilik və bacarıqları üçün tələbləri əhatə edir. Onlar həmçinin, kredit tələblərini, təhsil müddətini, maddi-texniki və tədris bazasını, insan resurslarını, təlimin forma və metodlarını, habelə yekun dövlət imtahanı və qiymətləndirməsi üçün tələbləri də əks etdirir.

Qaydalara əsasən, fənlər üzrə təhsil proqramları (kurikulumlar) təhsil müəssisələri tərəfindən hazırlanır və Təhsil Nazirliyi tərəfindən təsdiq olunur. Kurikulumlar ali təhsil müəssisələri tərəfindən hazırlanan və təsdiq edilən işçi tədris proqramları (sillabus) əsasında həyata keçirilir. Onlar tədris olunan fənnin təsvirini, onun hədəf və məqsədini, qısa məzmununu, dərslərin müddətini və növlərini, tələbənin müstəqil işi üçün tapşırıqları, onların yerinə yetirilməsi müddətini, məsləhət saatlarını, müəllim haqqında məlumatı, müəllimin tələblərini, qiymətləndirmə meyarlarını, aralıq qiymətləndirmə cədvəlini, istifadə olunan ədəbiyyatın siyahısını əhatə edir.

## 3.2. Kvalifikasiya standartı və magistr kurikulumu

Magistr pilləsində təhsil tələbələrə müvafiq elm sahəsi üzrə tədqiqatlar aparmaq və təşkil etmək, müasir informasiya texnologiyalarından istifadə etmək, ali təhsil müəssisələrində pedaqoji fəaliyyət ilə məşğul olmaq və idarəetmə vəzifələrində çalışmaq üçün zəruri bacarıqlar əldə etmək imkanı verir.

Magistr təhsili həmçinin, iki proqramlar qrupunu əhatə edir: (i) humanitar; və (ii) xüsusi fənlər. Sonuncu müvafiq ixtisas sahəsi üzrə qarşıya çıxan standart və qeyri-standart məsələləri həll etmək üçün zəruri olan bilik, bacarıq və vərdişlərin mənimsənilməsini təmin edir.

Ümumi auditoriya saatlarının 20-25%-i humanitar fənlərin, 75-80%-i isə ixtisas fənlərinin tədrisinə sərf edilir. Magistr pilləsində təhsil tədris və elmi tədqiqat komponentlərini özündə ehtiva edir. Təhsil komponentinə ayrılan saatların həcmi ümumi saatların 40-50%-ni təşkil edir.

Humanitar fənn bölümünə məcburi fənlər kimi “Xarici dil”, “Ali məktəb pedaqogikası” və “Psixologiya” fənləri daxildir.

Magistr səviyyəsində təhsil həmçinin, Nazirlər Kabinetinin 12 iyun 2010-cu il tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi qaydaları” ilə də tənzimlənir. Sözügedən qaydalar bakalavr pilləsi üçün olan qaydalara oxşardır. Onlara əsasən, magistr pilləsi üzrə təhsilin məzmunu nəzəri təhsili, pedaqoji və peşə təlimini, elmi tədqiqat işini əhatə edir. Onlar elmi tədqiqat işlərinə dair prosedurları da əks etdirir. Qaydalar həmçinin, dövlət imtahanından və magistr dissertasiyasından ibarət olan yekun attestasiya prosedurlarını də müəyyən edir. Lakin ali təhsil standartlarında olduğu kimi onlar da peşə təlimini əks etdirmir.

Magistr pilləsində ixtisaslar üçün mövcud olan və Nazirlər Kabinetinin 14 iyun 2011-ci il tarixli 95 nömrəli qərarı ilə təsdiq edilmiş təsnifat 141 ixtisası əhatə edir. Sözügedən ixtisaslar üzrə mövcud olan kurikulumlar hazırda təlim nəticələrinə əsaslanmır, Təhsil Nazirliyi tərəfindən yeni təhsil standartlarına və AzKÇ tələblərinə uyğun yeni kurikulumun hazırlanması istiqamətində səylər göstərilir.

## 3.3. Kvalifikasiya standartı və doktorantura kurikulumu

Hal-hazırda, Azərbaycanda doktorantura təhsili pilləsi üzrə təsdiq olunmuş standart mövcud deyildir. Təhsil Nazirliyi tərəfindən Elmlər Akademiyası ilə birgə müvafiq istiqamətdə işlər aparılır. Nazirlər Kabinetinin 15 mart 2012-ci il tarixli 65 nömrəli qərarı ilə təsdiq etdiyi “Ali təhsilin doktorantura pilləsi üçün ixtisasların təsnifatında” 399 ixtisas yer almışdır.

## 3.4. Ali təhsildə peşə standartları

DİOS layihəsi çərçivəsində ali təhsilin tələb etdiyi peşə profilləri üzrə yalnız 36 peşə standartı hazırlanmışdır. Onlar ümumi, ilk peşə-ixtisas və ya orta ixtisas təhsili pilləsinin tələb etdiyi peşə standartları ilə müqayisədə eyni struktura malikdirlər. Yeni kvalifikasiya standartlarının və kurikulumların hazırlanması məqsədilə istifadə olunacaq əlavə peşə standartlarının hazırlanmasına ciddi ehtiyac vardır. Onlar yeni kurikulumların ayrılmaz tərkib hissəsi olacaq təlim nəticələrinin müəyyən edilməsi üçün baza formalaşdıracaqdır.

## 3.5. Əsas nəticələr, o cümlədən AzKÇ tələblərinə cavab vermək üçün mövcud kvalifikasiya növü diskriptorlarının necə və nə üçün dəyişdirilməli olduğunun qiymətləndirilməsi

Ali təhsil pilləsi üzrə mövcud olan kvalifikasiya standartı struktur baxımından uyğunsuzluqlara da malikdir. Standart ali təhsil üçün müxtəlif ixtisaslar üzrə əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı kadrların hazırlanması məqsədini müəyyən edir. Məzmun baxımından isə, yalnız magistr pilləsi üzrə təlimin təhsil və elmi tədqiqat formaları müəyyən olunur.

Standart və kurikulumları hazırlayan işçi qruplarının tərkibi standartlarda aydın şəkildə göstərilməli və burada biznes nümayəndələrinə daha çox üstünlük verilməlidir.

Təhsilin daha aşağı pillələrinin tənzimlənməsində istifadə edilən standartlar üçün xarakterik olan eyni problemlər ali təhsil standartlarında da mövcuddur. Həm struktur, həm də məzmun təkmilləşdirilməli, mövcud uyğunsuzluqlar aradan qaldırılmalı və şəffaflıq səviyyəsi artırılmalıdır. Bacarıqların qiymətləndirilməsi prinsip və alətləri standart və kurikulumlara daxil edilməlidir. Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Attestasiya qaydaları və kredit sistemi əsasında təlimin təşkili qaydaları kimi

digər hüquqi normativ sənədlərə istinad minimum səviyyəyə endirilməli və müvafiq normativ tələblər standartlara daxil edilməlidir.

Kvalifikasiya standartları ali təhsilin bütün pillələri üzrə hazırlanmalı və AzKÇ layihəsi ilə əlaqələndirilməlidir. Bakalavr, magistr və doktorantura pillələrində AzKÇ üzrə diskriptorların 6, 7 və 8-ci səviyyələrində bilik və qavrama, bacarıqlar, sərbəstlik və məsuliyyət üçün ümumi təlim nəticələri hazırlanmalıdır.

AzKÇ tələblərinə əsasən, standartlar alternativ yollar, o cümlədən qeyri-formal və informal təlimin tanınması vasitəsilə kvalifikasiyaların əldə edilməsi barədə müddəaları da əhatə etməlidir.

Magistr pilləsi üzrə standartlar AzKÇ-nin müvafiq diskriptorlarında da qeyd edilən peşə sahəsi üzrə təlim və qiymətləndirmə elementlərini əhatə etməlidir. Məsələn, kvalifikasiya çərçivəsi layihəsi iş və ya təhsil sahəsi ilə əlaqəli problemlərin müəyyən edilməsi, formalaşdırılması və həll edilməsi üçün tələb olunan bacarıqları müəyyən edir.

# 4. Əlavə təhsil sahəsində kvalifiaksiya standartları

## 4.1. Əlavə təhsil sahəsində kvalifikasiya standartları

"Təhsil haqqında" Azərbaycanda Respublikasının Qanununa əsasən, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir vətəndaşın fasiləsiz təhsil almaq tələbatını ödəmək məqsədi ilə verilən təhsil kimi müəyyən edilir. Əlavə təhsilin altı istiqaməti vardır: ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, təkrar ali təhsil və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi və yaşlıların təhsili.

"Təhsil haqqında" Qanunun icarası ilə əlaqədar qəbul edilmiş sənədlərdən biri də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli 163 saylı qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"dır.

Bu qaydalar ali, orta ixtisas və ya ilk peşə-ixtisas təhsilinin hər hansı biri üzrə kvalifikasiya sənədlərinə malik şəxslərə şamil edilir. Onlar əlavə təhsilin istiqamətləri üzrə məzmununu, forma və təşkilini, habelə müvafiq kvalifikasiya sənədlərinin verilməsini tənzimləyir. Əlavə təhsil vətəndaşlar üçün ömür boyu təhsil imkanı təmin edir.

Bu sənəd təhsil kurikulumlarının hazırlanması və təsdiqi, keyfiyyətə nəzarət və müqavilə əsasında təhsilin təşkili prosesində özəl sektorun iştirakını nəzərdə tutur.

Əlavə təhsil ixtisasartırma və yenidənhazırlanma qurumlarında, təhsil müəssisələrində yaradılmış müvafiq strukturlarda, stajkeçmə və peşə hazırlığı kurslarında və bu sahə üzrə fəaliyyətinə xüsusi razılıq verilmiş digər müəssisələrdə həyata keçirilir.

İxtisasartırma təhsili aşağıdakı təlim modulları əsasında təşkil olunur:

- peşə fəaliyyətinin ümumi əsasları üzrə təlim;
- ixtisas sahələri üzrə təlim;
- innovasiyalar üzrə təlim.

Qaydalara əsasən, modul ixtisasartırma təhsili prosesində nəzərdə tutulmuş müəyyən istiqamətdə bilik, bacarıq və vərdişlərin əldə edilməsinə, dünyagörüşü formalaşdırılmasına xidmət edən biliklər sistemini ifadə edir. Modulların sayı və modullar üzrə təlim saatlarının tələb olunan minimum həcmi, eləcə də kurikulum çərçivəsi (təlimin məzmunu, təhsil müddəti və kreditlərin həcmi) mərkəzi icra hakimiyyəti orqanları, bələdiyyələr və özəl qurumlar tərəfindən müəyyən edilir. Bu və ya digər kateqoriyadan olan kadrlar üçün bir ixtisasartırma dövrü üzrə müəyyən edilən təlim saatlarının ümumi miqdarı, modulların mövzuları, vəzifələri, gözlənilən nəticələr və bir modula düşən təlim saatları bir-birindən fərqlənə bilər.

İxtisasartırma təhsili sifarişçi (təhsilalan və ya onu işə götürən) ilə təhsil müəssisəsi arasında bağlanan müqavilə əsasında təşkil edilir. Keyfiyyətə nəzarət tədbirləri təhsil və təlim prosesinin və onun nəticələrinin müvafiq mərkəzi icra hakimiyyəti orqanları, bələdiyyələr və özəl qurumlar tərəfindən monitorinqi vasitəsilə həyata keçirilir. Qeyri-hökumət təşkilatları və beynəlxalq qurumlar da prosesdə iştirak edə bilər. Təhsil müəssisələri həyata keçirilmiş ixtisasartırma tədbirləri barədə müvafiq mərkəzi icra hakimiyyəti orqanına, bələdiyyələrə və özəl sektora məlumat verir.

İxtisasartırma təhsili əyani və distant (məsafədən) formada həyata keçirilə bilər. İxtisasartırma təhsilini müvəffəqiyyətlə başa vuran və müəyyən edilmiş krediti toplayan hər bir dinləyiciyə mərkəzi icra hakimiyyəti orqanları, bələdiyyələr və özəl qurumlar tərəfindən vahid formalı sertifikat verilir.

Kadrların yenidənhazırlanma təhsili yeni kvalifikasiyaların əldə edilməsi məqsədilə təşkil olunur. Qaydalara əsasən, təhsil müəssisəsinin işçi heyəti ilə yanaşı, digər müəssisə və təşkilatların mütəxəssisləri də təlimlərin keçirilməsinə cəlb oluna bilər.

Yenidənhazırlanma təhsilini uğurla başa vuran şəxslərə verilən diplom yalnız baza təhsili diplomu ilə birgə təqdim edildikdə hüquqi əsasa malikdir.

Yenidənhazırlanma təhsili əyani və ya distant formada təşkil oluna bilir. Bu təhsil forması ilkin baza təhsili proqramları ilə yenidən əldə ediləcək ixtisasın baza təhsili proqramı arasındakı fərqin bir tədris ilinə hesablanmış saatdan çox olmaması şərtilə mütəxəssislərə verilən əlavə təhsildir. Proqramlar arasındakı fərq təhsil müəssisəsi tərəfindən müəyyən edilir.

Stajkeçmə və kadrların təkmilləşdirilməsi təhsili peşəkarlıq səviyyəsinin və əməyin keyfiyyətinin yüksəldilməsi məqsədi daşıyır, kadrların peşə bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsinə, nəzəri biliklərin təcrübə ilə əlaqələndirilməsinə, daha müasir peşə bacarıq və vərdişlərinin qazanılmasına, yeni texnologiyalar və innovasiyalar sisteminin tətbiqi üzrə təcrübə əldə edilməsinə xidmət edir.

Təkrar ali təhsil və orta ixtisas təhsili ilkin baza peşə-ixtisas təhsili proqramı ilə yenidən əldə ediləcək ixtisasın baza təhsil proqramı arasındakı fərq bir tədris ilinə hesablanmış saatdan çox olduqda, mütəxəssislərə verilən əlavə təhsil növüdür. Ali təhsili olanlar təkrar ali, orta ixtisas təhsili olanlar isə təkrar orta ixtisas təhsili ala bilərlər.

Dərəcələrin yüksəldilməsi təhsili subbakalavr dərəcəsinə malik kadrların uyğun ixtisaslar üzrə bakalavr səviyyəsində hazırlığını nəzərdə tutan təhsil növüdür. Onlar ilkin baza təhsili proqramı ilə yenidən əldə ediləcək ixtisas üzrə bakalavr təhsili proqramı arasındakı fərqin 1 tədris ilinə hesablanmış saatdan az və 2 tədris ilinə hesablanmış saatdan çox olmaması zamanı təklif olunur.

Təkrar ali və orta ixtisas təhsili və dərəcələrin yüksəldilməsi təhsili əyani, qiyabi və ya distant təhsil formasında təşkil oluna bilər. Təhsilin qeyd edilən bu iki forması müqavilə əsasında da həyata keçirilə bilər.

Yaşlıların təhsili 18 yaşdan yuxarı şəxslərə şamil olunur. O bilik və bacarıqların artırılması, peşəkarlıq səviyyəsinin yüksəldilməsi və ya ixtisas sahəsinin dəyişdirilməsi imkanı yaradır.

Azərbaycanda ömür boyu təhsil üçün ixtisaslar üzrə təhsil proqramları (kurikulumları) demək olar ki, yox səviyyəsindədir. Bu təhsil və təlim növü təhsil müəssisələri tərəfindən hazırlanan fənn proqramları əsasında həyata keçirilir.

Ölkə səviyyəsində tanınan sertifikatların verilməsi ilə nəticələnən əlavə təhsil və təlim bir sıra sahə Nazirliklərinin (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Sənaye və İqtisadiyyat Nazirliyi və s.), az sayda böyük şirkətlərin (məsələn, ARDNŞ, AzerSun), peşəkar assosiasiyaların (məsələn, Banklar Assosiasiyası) nəzdində fəaliyyət göstərən təlim mərkəzləri və ixtisaslaşmış müstəqil təlim təşkilatları (məsələn, GRBS) tərəfindən həyata keçirilir. Mövcud qanunvericiliyə əsasən sertifikatların verilməsi ilə nəticələnən bütün təlim proqramları Təhsil Nazirliyi tərəfindən təsdiq edilməlidir.

Dövlət Məşğulluq Xidməti regional təlim mərkəzlərində işsiz və iş axtaran vətəndaşlar üçün qısamüddətli kurslar təşkil edir. Sosial Müdafiənin İnkişafı Layihəsi çərçivəsində BƏT-in modul tipli təlim metodologiyası (Məşğulluq qabiliyyətli bacarıqları modul metodologiyası kimi da tanınır) əsasında 35 təlim modulu hazırlanmış və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir. Modullar qısamüddətli təlim kursları üçün nəzərdə tutulmuşdur. Onlar 6 blok üzrə təlim elementlərini əhatə edir:

1. Əməyin sağlamlığı və təhlükəsizlik;
2. Fəaliyyət;
3. Nəzəri informasiya;
4. Qrafik informasiya;
5. Texniki informasiya – materiallar, komponentlər və metodlar;
6. Texnikli informasiya – alətlər, maşın və avadanlıq.

Modullar iştirakçılar ilə bağlı yaş məhdudiyyəti tələb etməklə yanaşı, təlim proqramının hazırlanması ilə bağlı prosedurları, səriştələrin formalaşdırılması və inkişafı üsullarını, təlimin müddətini, vərdişlərin əldə edilməsi metodlarını, təlim metodologiyasını, qiymətləndirmə prinsiplərini, sertifikasiya prosesini, işin təsvirini, müvafiq iş yeri üzrə vəzifələr, bacarıqlar və nəzəri biliklərlə bağlı tələbləri, istiqamətverici sxemi, əlaqəli təlim elementlərini, onların məqsədlərini, qiymətləndirmə metodlarını, alət və avadanlıqların siyahısını əhatə edir.

Hazırlanmış modullar Dövlət Məşğulluq Xidməti tərəfindən işaxtaran və işsiz vətəndaşların təliminin təşkili zamanı istifadə edilir. Bu modullar peşə sahələri üzrə xüsusi fənlərə hədəflənir və ümumi səriştələri istisna edir.

## 4.2. Əlavə təhsildə peşə standartları

DİOS layihəsi çərçivəsində hazırlanan bütün peşə standartları gələcəyə istiqamətlənmiş səriştələri müəyyən edir ki, bu da əlavə təhsil üçün zəmin yaradır. Sözügedən standartlar qeyri-formal və informal təlimləri əhatə edən təlim yollarını, habelə əvvəlki təlimin tanınmasını əks etdirdiyi üçün onlardan əlavə təhsil və təlimdə istifadə oluna bilər. Yuxarida qeyd edildiyi kimi, əlavə təhsilin nəticələri üzrə tələbləri müəyyən etmək məqsədilə daha çox peşə standartının hazırlanmasına ehtiyac vardır. Əlavə təhsil ilə bağlı mövcud qanunvericilikdə qeyd edildiyi kimi, özəl qurumların nümayəndələri əlavə təhsilin kurikulumlarının hazırlaması və təsdiq edilməsi prosesində iştirak edir. İştirakın effektiv yollarından biri peşə standartlarının hazırlanmasından keçir ki, bu da modul tipli kurikulumların hazırlanması prosesi üçüm məlumat mənbəyi ola bilər.

Qeyd etmək istərdik ki, dövlət məşğulluq xidmətləri tərəfindən tətbiq ediləcək qısamüddətli təlim kursları üçün 35 təlim modulunun hazırlanması zamanı peşə standartlarından istifadə edilmişdir.

## 4.3. Əsas nəticələr

Ömür boyu təhsil üçün kvalifikasiya standartları qabaqcıl beynəlxalq təcrübə əsasında hazırlanmalıdır. Onlar AzKÇ sənədi ilə əlaqələndirilməlidir ki, burada əlavə təhsil kvalifikasiyaları 3-8-ci səviyyələr üzrə müəyyən edilir. Əlavə təhsil üzrə hazırkı standart ilk peşə-ixtisas təhsili sistemini aydın şəkildə əhatə etmir. Burada həmçinin, əlavə təhsilin istiqamətləri ümumi şəkildə təsvir edilir və ümumi təlim nəticələri əks olunmur. Əlavə təhsilin formal formaları üzrə ixtisas kurikulumları təhsil pillələri üzrə müvafiq kurikulumlara uyğun olaraq hazırlanmalıdır. Kvalifikasiyaların müqayisəsini təmin etmək məqsədilə əlavə təhsilin müxtəlif növləri üzrə qiymətləndirmə meyarlarının müəyyən edilməsinə ehtiyac vardır.

# Nəticə və tövsiyələr

Təhsil standartlarının və kurikulumların müasir əmək bazarının tələblərinə uyğun dəyişdirilməsi və təkmilləşdirilməsi istiqamətində səylər göstərilməkdədir. Yeni təhsil strategiyasının və AzKÇ sənədinin tələblərinə uyğun olaraq, Təhsil Nazirliyi tərəfindən yeni təhsil standartlarına və kurikulumlara təlim nəticələri və modul əsaslı yanaşma tətbiq edilməkdədir. Nazirlik təhsildə keyfiyyətin təmin edilməsində bütün maraqlı tərəflərin cəlb olunması ilə hazırlanan kvalifikasiya standartlarının vacib rolunu anlayır və onların hazırlanmasını nəzərdən keçirir.

Təhsilin hər bir pilləsi üzrə mövcud standartların struktur və məzmununda boşluqlar və təkrarlanma halları mövcuddur. Həmçinin, kvalifikasiyaların müxtəlif səviyyələri arasında əlaqə və AzKÇ sənədində əks olunan təsvirlərə uyğunluq zəifdir. Mövcud kvalifikasiya standartları və kurikulumlarının həm strukturunda, həm də məzmununda dəyişiklərin edilməsi zəruridir. Tövsiyə olunur ki, gələcəkdə təhsilin dövlət standartları təhsilin idarə edilməsi, maddi-texniki və tədris bazası, infrastrukturu kimi təşkilati məsələlərə istiqamətləndirilsin, təlim prosesinin nəticələrinin qiymətləndirilməsi, təsbit edilməsi və sertifikatlaşdırılması kimi kvalifikasiya tələblərinin əks olunduğu ayrıca kvalifikasiya standartları hazırlansın. Kvalifikasiya standartlarının hazırlanması üçün hüquqi bazanın yaradılması məqsədi ilə qanunverciliyə müvafiq dəyişikliklər edilməlidir. Bunun mümkün yollarından biri “Təhsil haqqında” Qanuna və dövlət təhsil standartlarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına kvalifikasiya standartları ilə bağlı qeydin edilməsidir. 2015-ci ilin aprel ayında dövlət təhsil standartlarının planlaşdırılan növbəti yenilənməsi zamanı sözügedən dəyişikliyi etmək olar.

Eyni zamanda, təlim vahidlərinə əsaslanan, Avropa Kredit Transfer Sistemi və Peşə Təhsili üzrə Avropa Kredit Sistemi ilə əlaqələndirilmiş milli kredit sisteminin yaradılması və AzKÇ-yə inteqrasiya edilməsi tövsiyə olunur. Kvalifikasiyalar və modul kurrikulumların hazırlanmasına dəstək vermək üçün kvalifikasiyaların reyestrindən əlavə, təlim vahidlərinin bazası da yaradılmalıdır.

Formal təhsildən kənarda (qeyri-formal və informal təhsil yolu ilə) əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi, kreditlərin verilməsi və beləliklə də kvalifikasiya sənədi vermək məqsədi ilə səriştələrin tanınmasını təmin etmək üçün kredit sisteminin tətbiqini tənzimləyən qaydalarda təlim nəticələrinə əsaslanan yanaşmanın nəzərdə tutulmasına ehtiyac var.

Qiymətləndirmədə bitərəfliyi təmin etmək və özünü-qiymətləndirmə hallarına yol verməmək məqsədilə müstəqil təşkilat və ekspertlər tərəfindən keyfiyyətin kənar təminatı tədbirləri həyata keçirilməlidir. Təhsil Nazirliyinin tabeliyində olan bütün təhsil müəssisələrinin onun özü tərəfindən akkreditasiya edilməsini təsbit edən hazırkı qanunvericilik keyfiyyət təminatı məqsədlərinə tam olaraq xidmət etmir. “Təhsil haqqında” Qanuna, Təhsil müəssisələrinin akkreditasiyası qaydalarına və Kvalifikasiya Çərçivəsi layihəsinə müvafiq dəyişiklər edilməlidir.

Ümumi orta və tam orta təhsil standartları cəmiyyətin tələblərinin əks etdirilməsi və müvafiq təhsil müəssisələri ilə məsləhətləşmələr vasitəsi ilə daha yüksək təhsil pillələri ilə əlaqələrin təmin edilməsi baxımından təkmilləşdirilməlidir.

İlk peşə-ixtisas təhsili və əlavə təhsil üzrə standartlar son illərdə donor layihələrinin dəstəyi ilə Təhsil, Əmək və əhalinin sosial müdafiəsi nazirlikləri və Təhsil Problemləri İnstitutu tərəfindən təkmilləşdirilmişdir. Peşə standartları əsasında ilk peşə-ixtisas təhsili üzrə 56 standart və kurikulum, həmçinin əlavə təhsil üzrə 63 kvalifikasiya standartı hazırlanmışdır.

Lakin qeyd edilən sahədə nəzərəçarpan problemlər hələ də qalmaqdadır. Vətəndaş cəmiyyəti və biznes strukturları kimi maraqlı tərəflərin təhsil sistemi qarşısındakı tələblərinin daha dolğun şəkildə təmin edilməsi üçün onlarla daha möhkəm və institusionallaşdırılmış əlaqələrin qurulmasına ehtiyac

var. Təhsilalanlara kvalifikasiya (ixtisas) seçimində yardım etmək üçün karyera məsləhətləri və peşəyönümü işinin gücləndirilməsi zəruridir. Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasında peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin yaradılması nəzərdə tutulmuşdur.

Orta ixtisas təhsili üçün də kvalifikasiya standartları hazırlanmalıdır. Təhsil Nazirliyi ilk peşə və orta ixitsas təhsili bazasında peşə təhsili komplekslərinin yaradılmasını planlaşdırır. Buna görə də bu təhsil səviyyələri üçün standartlar eyni strukturda olmalıdır.

Avropa Ali Təhsil Sahəsi üzrə Kvalifikasiya Çərçivəsinin tələblərinə cavab vermək üçün bir çox məsələlər həll edilməlidir. 2001-2002-ci illərdə 6 universitet muxtariyyət əldə etmişdir. Gözlənilir ki, universitetlər tədricən muxtariyyət əldə edəcəklər.

Təhsil Nazirliyi 2013-cü ildə Akkreditasiya və lisenziyalaşdırma şöbəsinin fəaliyyətini dayandırmış, Hüquqi ekspertiza və lisenziyalaşdırma şöbəsinin tərkibində Lisenziyalaşdırma və akkreditasiya sektoru yaratmışdır. Nazirlik xarici keyfiyyət təminatı prosesini bu yaxınlarda yenidən başlamışdır və müvafiq ekspertləri cəlb etməklə bütün universitetlərin kənar qiymətləndirməsini həyata keçirməyi planlaşdırır. Ali təhsildə keyfiyyətin təminatı üçün Nazirlər Kabinetinin qərarı ilə müstəqil qurumun yaradılması nəzərdə tutulur.

Ali təhsil kvalifikasiyaları üçün ölkə üzrə ümumi standartlara və onların bütün universitetlər tərəfindən həyata keçirilməsini təmin edən prosedurlara ehtiyac var. Universitetlər kvalifikasiya standartları əsasında fənlər üzrə məzmun standartlarının hazırlanmasını təşkil edə bilərlər. Kurikulumlar əmək bazarının və ictimaiyyətin tələblərini əks etdirən standartlar əsasında hazırlanmalıdır. Hər bir kafedrada biznes qurumların da nümayəndələrinin cəlb olunduğu məşvərət şuraları olmalıdır.

Əlavə təhsil sahəsi, əsasən, tənzimlənmədən kənarda qalmışdır. “Təhsil haqqında” Qanunda hər bir təhsil müəssisəsinin təhsil fəaliyyəti göstərmək üçün Təhsil Nazirliyindən xüsusi razılıq (lisenziya) almalı olduğu göstərilsə də bu tələbin digər hüquqi formalarda qeydiyyata alınmış təhsil fəaliyyəti göstərən təşkilatlara aid edilib-edilməməsi aydın deyil. Sertifikatlaşdırma üzrə mövcud təcrübələr təhsilverənlər arasında dəyişir. Qeyri formal təhsil və təlim verən bir çox müəssisələr kənar keyfiyyət təminatı olmayan sertifikatlar təqdim edirlər. Azərsun Akademiyanın Daxili İşlər Nazirliyi tərəfindən lisenziyalaşdırılmış bir institut kimi mühafizəçilər üçün sertifikatlar təqdim etməsi onu göstərir ki, hazırda yaşlıların təhsilinin böyük bir hissəsi AzKÇ-nin hazırlanmasının əsasını təşkil edən “Təhsil haqqında” Qanunda nəzərdə tutulan tələblərdən kənara çıxır.

Əlavə təhsil üzrə diplom və sertifikatlar sisteminin yaradılmasının ilk mərhələsi müxtəlif sektorlar üçün müvafiq qayda və prosedurların müəyyən edilməsindən ibarətdir. DIOS layihəsi tərəfindən işlənmiş əlavə təhsil üzrə kvalifikasiya standartlarının hazırlanması metodologiyası və 63 kvalifikasiya standartı müəyyən edilmiş ehtiyaclar əsasında sistemli yanaşmanın tətbiqi üçün ilk addımdır. Bu kvalifikasiya standartları üçün səviyyələr ISCO 08-ə (Beynəlxalq Əmək Təşkilatı tərəfindən hazırlanmış Peşələrin Beynəlxalq Standart təsnifatı – 2008-ci il versiyası) əsaslanır, lakin AzKÇ qəbul olunduqdan sonra ona uyğunlaşdırılmalıdır. Bu məsələ təkcə Təhsil Nazirliyi tərəfindən həll edilə bilən bir məsələ deyil, müvafiq sektorlardan olan digər qurumların da davamlı peşə təhsili ilə bağlı mövqeləri nəzərə alınmalıdır. Təlimdən əvvəl qəbul yoxlaması prosedurlarının formalaşdırılması üçün kvalifikasiya standartları və qiymətləndirmə vahidlərindən istifadə etməklə analitik yoxlama alətlərinin hazırlanması faydalı olar. Bu, təlimin vaxtını azalda və onu bütöv kurikuluma deyil, verilməli olan xüsusi səriştələrə hədəfləndirməyə yardım edə bilər.

Əlavə təhsil üzrə kvalifikasiya standartlarının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Təhsil Nazirliyi və digər tərəfdaşlarla əməkdaşlıq şəraitində hazırlanması tövsiyə olunur. Əlavə təhsil kvalifikasiyalarının ümumi təhsil kvalifikasiyaları ilə keçidini təmin etmək üçün təlim vahidlərinə həcm kreditləri tətbiq edilə bilər.

Müxtəlif təşkilatların və maraqlı tərəflərin təhsilin pillələri üzrə kvalifikasiya standartlarının hazırlanması, yenilənməsi, tətbiq edilməsi sahəsində rol və vəzifələrinin bölgüsü üzrə tövsiyələr Əlavə 1-də daha konkret şəkildə verilmişdir. Əlavə 1-də verilmiş cədvəllərin təhslili əsasında maraqlı tərəflərlə aparılan müzakirələr nəticəsində AzKÇ-nin standartlarla zənginləşdirilməsi üzrə tövsiyələr hazırlanmış (Əlavə 2) və konkret tədbirlər üçün vaxt çərçivəsi müəyyən edilmişdir (Əlavə 3).

## İlk peşə-ixtisas təhsili və fasiləsiz təhsildə kvalifikasiya standartları ilə bağlı tövsiyələr

İlk peşə-ixtisas təhsili və fasiləsiz təhsil ümumi akademik təhsil ilə müqayisədə daha fərqli sistemlərə malikdir və əmək bazarı ilə daha sıx əlaqəlidir. Onlar sürətlə dəyişən əmək bazarının cari ehtiyaclarına uyğun səriştələrin hazırlanmasına xidmət edir və kvalifikasiyalar ömür boyu təhsili və karyera inkişafını dəstəkləyən alətlər rolunda çıxış edir. Bu səbəbdən də, təhsilin qeyd edilən səviyyələri üzrə kvalifikasiya standartları ilə münasibətdə ümumi yanaşma tətbiq edilə bilər. Standartlar iqtisadiyyatın işçi qüvvəsinin bilik, bacarıq və davranışlarına olan ehtiyaclarını əks etdirən təlim nəticələrinə əsaslanmalıdır. Sözügedən nəticələr ölçülə bilən olmalı və qiymətləndirmə nəticələrinin müqayisəsini təmin etmək üçün standart qiymətləndirmə meyarları əks olunmalıdır.

İqtisadiyyatın tələbləri peşə standartlarında öz əksini tapır. Bu səbəbdən, peşə standartlarının hazırlanmasına daha güclü dəstək verilməli, o cümlədən peşə standartları və əlaqədar kvalifikasiya standartları üçün aydın hüquqi baza yaradılmalıdır.

Özəl sektorun təmsilçilərinin standartlar və kurikulumların hazırlanması və təsdiqi, keyfiyyətə təminat proseslərinə cəlb edilməsi konsepsiyası, eləcə də təhsilin müqavilə əsasında təşkil edilməsi yanaşması (əlavə təhsil və təlim üzrə mövcud standartlarda əks olunmuşdur) ilk peşə-ixtisas təhsili ilə münasibətdə tətbiq olunmalıdır.

Kvalifikasiya standartlarının hazırlanmasında prioritetləşdirməyə ehtiyac var. Azərbaycan Respublikasında 2007-2012-ci illər üzrə texniki peşə təhsilinin inkişafı üzrə dövlət proqramının ATF tərəfindən həyata keçirilmiş xarici qiymətləndirməsinin nəticələrinə əsasən, şagirdlərin 65%-i 216 ixtisas qrupu içərisində cəmi 15-də cəmlənmişdir. Hər bir ixtisas üzrə standartın hazırlanmasına ehtiyac yoxdur. İlk peşə-ixtisas təhsili üzrə kvalifikasiya standartları ayrıca peşələr üzrə deyil, ixtisas qrupları üzrə hazırlanmalıdır.

Biz ilk peşə-ixtisas təhsili və fasiləsiz təhsil üzrə kvalifikasiyalar üçün aşağıdakı strukturu tövsiyə edirik:

1. Kvalifikasiyanın adı
2. AzKÇ üzrə səviyyə
3. Milli Kvalifikasiya Reyestrində[3] Kvalifikasiyanın istinad kodu
4. Kvalifikasiyanın aid olduğu peşələr
5. Versiyanın nömrəsi
6. Təsdiq tarixi
7. Təsdiq edən orqan (təsisat)
8. Yenilənmə tarixi (bu əmik bazarının dəyişən tələblərinə uyğunlaşmaq baxımından əhəmiyyətlidir. Müvafiq peşə standartlarının yenilənmə tarixi ilə uyğunluq təşkil etməlidir)

---

[3] AzKÇ-nin Nazirlər Kabineti tərəfindən qəbul olunmasından sonra Reyestrin yaradılması gözlənilir.

9. Əlaqədar peşə standart(lar) ilə əlaqə

10. Kvalifikasiya standartlarının hazırlanmasına cəlb edilən ekspertlər qrupu

11. Kvalifikasiya standartlarını təsdiq edən sahə komissiyaları[4]

12. Kvalifikasiyanın növü (bu informasiya AzKÇ çərçivəsinə daxil olan müxtəlif kvalifikasiyalar arasında potensial əlaqələrin müəyyən edilməsi, o cümlədən şaquli irəliləyiş və üfüqi keçid imkanları baxımından vacibdir)

13. Məqsəd, səriştələrə olan tələbat və məzmun

14. Səciyyəvi məşğulluq imkanları (kvalifikasiya əldə edən şəxslər üçün əlaqədar işlər və karyera imkanları)

15. AzKÇ çərçivəsində tipik irəliləyiş imkanları (AzKÇ-nin daha yüksək səviyyələri üzrə kvalifikasiyalara şaquli irəliləyiş və eyni səviyyəsi üzrə isə digər kvalifikasiyalara üfüqi keçid imkanları sadalanmalıdır)

16. Qəbul tələbləri (daha aşağı səviyyəli kvalifikasiyalar üzrə tələblər və mümkün yaş məhdudiyyətləri qeyd edilməlidir)

17. Sənəd verən səlahiyyətli qurum

18. Maraqlı tərəflərin vəzifə və funksiyaları (mərkəzi icra hakimiyyəti orqanları, bələdiyyələr və özəl sektor təşkilatları)

19. Qiymətləndirməni həyata keçirən şəxslərlə bağlı tələblər (qiymətləndirməni aparan şəxslərin və / və ya qiymətlərimə qrupu üzvlərinin malik olmalı olduqları müvafiq kvalifikasiya və təcrübəyə dair tələblərin təfərrüatı təqdim edilməlidir)

20. Xüsusi tələblər (məsələn, sağlamlıq, yaradıcılıq və s. üzrə)

21. Xüsusi hüquqi tələblər (kvalifikasiyanın tənzimlənən peşə ilə əlaqəli olub-olmaması ilə bağlı, eləcə də peşənin / ixtisasın aspektləri, müqavilə şərtlərini əhatə edən xüsusi hüquqi müddəalar)

22. Unikal istinad nömrəsinə malik səriştə vahidləri (ümumi və xüsusi səriştələr sadalanır və hər bir səriştə üzrə təlim nəticələri müəyyən olunur)

23. Hər bir səriştə vahidi üzrə kredit həcmi

24. Qiymətləndirmənin meyar və metodları (tələb olunan nailiyyət səviyyəsini əks etdirən fəaliyyətin keyfiyyətini müəyyən edir. İnformasiya qiymətləndirmənin həyata keçirilməli olduğu ayrı-ayrı vəziyyətlər və şəraitlər üzrə təqdim edilməlidir (məsələn, istifadə olunacaq material və avadanlıqlar) və fəaliyyətə dair toplanmalı olan dəlillərin miqdarı (yəni, fəaliyyət neçə dəfə nümayiş etdirilməlidir)

25. Qiymətləndirmə prinsipləri (qüvvədə olma, etibarlılıq və praktiklik)

26. Keyfiyyətə təminat tədbirləri (qiymətləndirmənin təmin edilməsi və qiymətləndirməni həyata keçirən təsisat daxilində, müxtəlif təsisatlar arasında qiymətləndirmə qərarları ilə bağlı əlaqənin yaradılması istiqamətində təfərrüatlar təqdim edilməlidir)

---

[4] Kvalifikasiya standartlarının qəbul edilməsi üçün dövlət qurumları, təhsil müəssisələri, təsərrüfat subyektləri, həmkarlar ittifaqları və digər maraqlı tərəflərin cəlb olunduğu sahə komissiyalarının yaradılması təklif olunur.

27. Sertifikatlaşdırma tələbləri (verilmə üsullarını, yəni kvalifikasiyanın məktəb-əsaslı proqramlar, stajkeçmə/şagirdlik sxemləri, qısa kurslar, əvvəlki təlimin tanınması və s. metodların hansı biri vasitəsilə verilməsi)

28. Alternativ yollar, o cümlədən qeyri-formal və informal təlimlərin tanınması vasitəsilə (həm ilk peşə-ixtisas təhsili, həm də fasiləsiz təhsil üzrə kvalifikasiya standartları qeyri-formal və informal təhsilin tanınması, kvalifikasiyanın verilməsi və ya formal təhsil sistemindən kənarda əldə edilmiş səriştələrin tanınması vasitəsilə təlim prosesinin strukturlaşdırılması barədə müddəaları əhatə etməlidir)

29. İstifadə olunan anlayışlar

## Kvalifikasiya standartlarının strukturuna  müqayisəli yanaşma ilə bağlı tövsiyələr

Tənzimləməni həyata keçirən qurumdan və məzmundan asılı olmayaraq, kvalifikasiya standartları bütün AzKÇ səviyyələri üçün eyni struktura malik olmalıdır. Kvalifikasiyanın hər bir səviyyə və növü üzrə müddəalar fərqli ola bilsə də, standart strukturun mövcudluğu kvalifikasiyaların müqayisə oluna bilməsini və uyğunluğunu, eləcə də onların AzKÇ üzrə diskriptorlara cavab verməsini təmin edəcəkdir.

Təlim nəticələri kvalifikasiyalar ilə münasibətdə sistemli yanaşmanın təmin edilməsi baxımından mühüm alətlərdir. Təhsilin müxtəlif səviyyələri üzrə əlaqəni və sistemliyi təmin etmək üçün nəticələr müvafiq AzKÇ diskriptorlarına uyğun olmalıdır.

Biz həmçinin, digər qanunvericilik sənədlərinə (qərarlara) istinadların edilməsi səviyyəsinin minimum dərəcəyə endirilməsini və müvafiq tələblərin kvalifikasiya standartlarında əks olunmasını tövsiyə edirik. Belə ki, təhsilin müvafiq sahəsi üzrə təlim və tədrisin təşkili, eləcə də qiymətləndirmə ilə bağlı bütün aidiyyəti normativ tələblər standartlarda aydın şəkildə əks etdirilməlidir.

Səriştələrin mürəkkəblik səviyyələri üzrə bölünməsi çox vacibdir. Bu, kvalifikasiyanın müxtəlif növləri arasında aydın əlaqələrin qurulmasına xidmət edəcəkdir. 1-ci fəsildə müzakirə edilən səriştələrin və əlaqədar kurikulumların kateqoriyalara bölünməsi AzKÇ-nin diskriptorlarına uyğun olaraq, əldə edilən təlimlərin mürəkkəblik səviyyəsinin qiymətləndirməsi, eləcə də müxtəlif kvalifikasiyaların müqayisə oluna bilməsini təmin etmək məqsədi ilə bütün kvalifikasiyalara tətbiq oluna bilər.

Mövcud standartlar üzrə səriştələr və kvalifikasiyalar ilə bağlı tələblər təlim və təhsil müəssisənin ixtiyarına verilməlidir. Kvalifikasiya standartları təlim nailiyyətlərini (nəticələrini) müəyyən etdiyi üçün təhsil müəssisələri bu tələbləri qarşılamaq baxımından təhsilin verilməsi sahəsində müstəqilliyə malik ola bilər.

## Modul tipli kurikulumların hazırlanmasında kvalifikasiya standartlarından istifadə ilə bağlı tövsiyələr

Modul tipli kurikulumların hazırlanmasında kvalifikasiya standartlarının rolu, əsas etibarilə, təlim nəticələrinin modul tipli tədris hissələrinə transfer edilməsi ilə müəyyən edilir. Sözügedən hissələri tamamladıqdan sonra təhsilalanlar əldə etdikləri təlim nəticələri standart qiymətləndirmə meyarları əsasında qiymətləndirilir.

Modul tipli kurikulumların hazırlanması prosesində kvalifikasiya standartlarından istifadə aşağıdakı kimidir:

AzKÇ səviyyə diskriptorları → Kvalifikasiya standartı → Qiymətləndirmə meyarları və qiymətləndirmə metodları → Modul tipli təlim proqramları

Göründüyü kimi, kvalifikasiya standartları AzKÇ üzrə səviyyə diskriptorlarını əks etdirməlidir. Bu, təlim nəticələrinin müəyyən edilməsi ilə təmin edilir. Qiymətləndirmə meyarları və metodları fərdlərin əldə etdikləri təlim nəticələrinin attestasiyası məqsədilə hazırlanır. Həm təlim nəticələrindən, həm də qiymətləndirmə meyarlarından təlim proqramlarında (modul tipli) istifadə olunur. Onlar fənlər üzrə təhsilalanların bilik və bacarıq səviyyələrini müəyyən edən məzmun standartları üçün baza rolunu da oynaya bilər. Qiymətləndirmə meyarları, həmçinin, tədris prosesi çərçivəsində təlim nəticələrinin monitorinqi və qiymətləndirilməsinin təşkili məqsədilə istifadə oluna bilər.

Uyğunluq ilə bağlı mövcud təcrübəni və tələbləri nəzərə almaqla, biz qiymətləndirmə meyarları və metodlarının kvalifikasiya standartlarına daxil edilməsini tövsiyə etmişik.

İlk peşə-ixtisas təhsili və fasiləsiz təhsil pilələrində təlim planları kvalifikasiya standartlarında müəyyən edilən hər bir səriştə qrupu üçün kredit miqdarları əsasında hazırlana bilər.

Kvalifikasiya standartları əsasında hazırlanan kurikulumlar aşağıdakıları əhatə etməlidir:

- AzKÇ və digər kvalifikasiya standartı ilə əlaqə
- ixtisasların təsnifatı (kod) ilə əlaqə;
- səviyyə;
- kredit miqdarı;
- ixtisaslar qrupu;
- ixtisas;
- modul barədə ümumi məlumat;
- nümunəvi təlim planı (müddət, dərs və dərsdən-kənar tədris saatları);
- əhatə olunan iqtisadi fəaliyyət sahələri;
- peşə səriştələri üzrə tələbat (bilik, bacarıq, vərdiş və müstəqillik / məsuliyyət);
- qəbul tələbləri;
- peşə ilə bağlı xüsusi tələblər (yəni, qabiliyyət);
- ixtisaslaşmanın modul strukturu (kreditlər);
- baza vahidlər (modullar) və vahidlər üzrə təlim nəticələri;
- hər bir təlim nəticəsi üzrə qiymətləndirmə meyarları (əhatə dairəsi göstərilməklə);
- pedaqoji prosesin təşkili;
- stajkeçmə/şagirdlik fəaliyyətinin təşkili;
- monitorinq və qiymətləndirmənin təşkili (qiymətləndirməni həyata keçirən şəxslər, qiymətləndirmə formaları).

# İstinadlar

Ömür boyu təhsil üçün Azərbaycan Respublikalının Kvalifikasiya Çərçivəsi (AzKÇ)

Təhsil Nazirliyindən əldə edilən müxtəlif təhsil pillələri üçün dövlət standartları və kurikulumlar.

Təhsil Nazirliyinin internet səhifəsi ( http://edu.gov.az)

Azərbaycan Respublikasının qanunvericilik bazasının internet səhifəsi (http://e-qanun.az)

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin internet saytı (http://cabmin.gov.az/)

# Əlavə 1. Kvalifikasiya standartlarının hazırlanması, yenilənməsi, təsdiq və tətbiq edilməsi sahəsində rol və vəzifələrinin bölgüsü

## Ümumi təhsil üzrə kvalifikasiyalar sahəsində funksiyaların bölgüsü

| | Əmək bazarının və maraqlı tərəflərin ehtiyacları əsasında yeni profillərin müəyyənləşdirilməsi | Peşə standartlarının hazırlanması və yenilənməsi | Peşə standartları üzrə məsləhətləşmə | Peşə standartlarının təsdiq edilməsi | Kvalifikasiya standartlarının hazırlanması və yenilənməsi | Kvalifikasiya standartları üzrə məsləhətləşmə | Kvalifikasiya standartlarının təsdiq edilməsi | Kvalifikasiyanın Milli Kvalifikasiyalar Reyestrinə daxil edilməsi | Kvalifikasiyalar haqqında məlumatların istifadəçilər və benefisiarlara yayılması | Təhsil proqramlarının (kurikulumların) hazırlanması | Təhsil və təlim | Təlim nəticələrinin qiymətləndirilməsi | Təlim nəticələrinin təsbit edilməsi | Təhsilalanlara sertifikatların verilməsi | Kvalifikasiyaların keyfiyyətinin təmin edilməsi | Təhsilverənlərin keyfiyyət təminatı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təhsil Nazirliyi | | | | | | X | X | X | X | X | X | X | X | X | X | X |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | | | | | | | | | | | | | | | | |
| Sahə nazirlikləri | | | | | | | | | | | | | | | | |
| Təhsil Problemləri İnstitutu | | | | | | | | | | X | X | X | | | | |
| Keyfiyyət təminatı qurumu | | | | | | | | | | | | | | | | |
| TQDK | | | | | | | | | | | | | | | | |
| Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | | | | | | | | | | | | | | | | |
| Sahə komissiyaları | | | | | | | | | | | | | | | | |
| Təhsilverənlər | | | | | | | | | | | | | | | | |
| Sertifikat/diplom verən təşkilatlar | | | | | | | | | | | | | | X | | |

## İlk peşə-ixtisas təhsili üzrə kvalifikasiyalar sahəsində funksiyaların bölgüsü

| | Əmək bazarının və maraqlı tərəflərin ehtiyacları əsasında yeni profillərin müəyyənləşdirilməsi | Peşə standartlarının hazırlanması və yenilənməsi | Peşə standartları üzrə məsləhətləşmə | Peşə standartlarının təsdiq edilməsi | Kvalifikasiya standartlarının hazırlanması və yenilənməsi | Kvalifikasiya standartları üzrə məsləhətləşmə | Kvalifikasiya standartlarının təsdiq edilməsi | Kvalifikasiyanın Milli Kvalifikasiyalar Reyestrinə daxil edilməsi | Kvalifikasiyalar haqqında məlumatların istifadəçilər və benefisiarlara yayılması | Təhsil proqramlarının (kurikulumların) hazırlanması | Təhsil və təlim | Təlim nəticələrinin qiymətləndirilməsi | Təlim nəticələrinin təsbit edilməsi | Təhsilalanlara sertifikatların verilməsi | Kvalifikasiyaların keyfiyyətinin təmin edilməsi | Təhsilverənlərin keyfiyyət təminatı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Təhsil Nazirliyi** | X | X | X | | X | X | | X | X | | X | X | X | X | | X |
| **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | X | X | X | X | X | X | | | X | | X | | | X | | |
| **Sahə nazirlikləri** | X | X | X | | X | X | | | X | X | X | | | X | | |
| **Təhsil Problemləri İnstitutu** | X | | X | | X | X | | | X | X | X | | | X | | |
| **Keyfiyyət təminatı qurumu** | X | | X | | X | X | X | | | | | X | X | | X | X |
| **TQDK** | | | | | | X | | | | | | X | | | | |
| **Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi** | | | | | | | | | | | | | | | | |
| **Sahə komissiyaları** | X | X | X | X | X | X | X | | X | X | | X | | | | |
| **Təhsilverənlər** | | | X | | X | X | | | X | X | X | | | X | | X |
| **Sertifikat/diplom verən təşkilatlar** | | | | | X | X | | | X | | X | X | X | X | | X |

## Orta ixtisas təhsili üzrə kvalifikasiyalar sahəsində funksiyaların bölgüsü

| | Əmək bazarının və maraqlı tərəflərin ehtiyacları əsasında yeni profillərin müəyyənləşdirilməsi | Peşə standartlarının hazırlanması və yenilənməsi | Peşə standartları üzrə məsləhətləşmə | Peşə standartlarının təsdiq edilməsi | Kvalifikasiya standartlarının hazırlanması və yenilənməsi | Kvalifikasiya standartları üzrə məsləhətləşmə | Kvalifikasiya standartlarının təsdiq edilməsi | Kvalifikasiyanın Milli Kvalifikasiyalar Reyestrinə daxil edilməsi | Kvalifikasiyalar haqqında məlumatların istifadəçilər və benefisiarlara yayılması | Təhsil proqramlarının (kurikulumların) hazırlanması | Təhsil və təlim | Təlim nəticələrinin qiymətləndirilməsi | Təlim nəticələrinin təsbit edilməsi | Təhsilalanlara sertifikatların verilməsi | Kvalifikasiyaların keyfiyyətinin təmin edilməsi | Təhsilverənlərin keyfiyyət təminatı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Təhsil Nazirliyi** | X | X | X | X | X | X | X | X | X | X | X | X | X | X | X | X |
| **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | X | | | | | | | | | | | | X | | | |
| **Sahə nazirlikləri** | X | X | X | | | X | | | X | X | X | X | X | | X | |
| **Təhsil Problemləri İnstitutu** | | X | X | | | X | | | | X | | | | | | |
| **Keyfiyyət təminatı qurumu** | | | | | | | | | | | | X | X | | X | X |
| **TQDK** | X | | | | | | | | | | | X | | | | |
| **Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi** | | | X | | | | | | | | | | | | | |
| **Sahə komissiyaları** | | X | X | | | X | | | X | X | | | | | | |
| **Təhsilverənlər** | | X | X | | | X | | | X | X | | | | | X | |
| **Sertifikat/diplom verən təşkilatlar** | | X | X | | | X | | | X | X | | | | X | X | X |

## Ali təhsil üzrə kvalifikasiyalar sahəsində funksiyaların bölgüsü

| | Əmək bazarının və maraqlı tərəflərin ehtiyacları əsasında yeni profillərin müəyyənləşdirilməsi | Peşə standartlarının hazırlanması və yenilənməsi | Peşə standartları üzrə məsləhətləşmə | Peşə standartlarının təsdiq edilməsi | Kvalifikasiya standartlarının hazırlanması və yenilənməsi | Kvalifikasiya standartları üzrə məsləhətləşmə | Kvalifikasiya standartlarının təsdiq edilməsi | Kvalifikasiyanın Milli Kvalifikasiyalar Reyestrinə daxil edilməsi | Kvalifikasiyalar haqqında məlumatların istifadəçilər və benefisiarlara yayılması | Təhsil proqramlarının (kurikulumların) hazırlanması | Təhsil və təlim | Təlim nəticələrinin qiymətləndirilməsi | Təlim nəticələrinin təsbit edilməsi | Təhsilalanlara sertifikatların verilməsi | Kvalifikasiyaların keyfiyyətinin təmin edilməsi | Təhsilverənlərin keyfiyyət təminatı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Təhsil Nazirliyi** | | | X | | X | | | X | X | | | | | | X | X |
| **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | X | X | | | | X | | | X | | | | | | | |
| **Sahə nazirlikləri** | | | X | | | X | | | X | | | | | | | |
| **Təhsil Problemləri İnstitutu** | | | | | | | | | | | X | | | | | |
| **Keyfiyyət təminatı qurumu** | | | | | | | | | | | | | | | | |
| **TQDK** | | | | | | | | | | | | | | | | |
| **Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi** | | | | | | | | | | | | | | | | |
| **Sahə komissiyaları** | | | | | | | | | | | | | | | | |
| **Təhsilverənlər** | | | | | | X | | | | X | X | X | X | X | | |
| **Sertifikat/diplom verən təşkilatlar** | | | | | | | | | | | | | | X | | |

## Əlavə təhsil üzrə kvalifikasiyalar sahəsində funksiyaların bölgüsü

| | Əmək bazarının və maraqlı tərəflərin ehtiyacları əsasında yeni profillərin müəyyənləşdirilməsi | Peşə standartlarının hazırlanması və yenilənməsi | Peşə standartları üzrə məsləhətləşmə | Peşə standartlarının təsdiq edilməsi | Kvalifikasiya standartlarının hazırlanması və yenilənməsi | Kvalifikasiya standartları üzrə məsləhətləşmə | Kvalifikasiya standartlarının təsdiq edilməsi | Kvalifikasiyanın Milli Kvalifikasiyalar Reyestrinə daxil edilməsi | Kvalifikasiyalar haqqında məlumatların istifadəçilər və benefisiarlara yayılması | Təhsil proqramlarının (kurikulumların) hazırlanması | Təhsil və təlim | Təlim nəticələrinin qiymətləndirilməsi | Təlim nəticələrinin təsbit edilməsi | Təhsilalanlara sertifikatların verilməsi | Kvalifikasiyaların keyfiyyətinin təmin edilməsi | Təhsilverənlərin keyfiyyət təminatı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təhsil Nazirliyi | X | X | X | X | X | X | X | X | X | X | X | X | X | X | X | X |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | X | X | X | X | X | X | X | X | X | X | X | X | X | X | X | X |
| Sahə nazirlikləri | X | X | X | X | X | X | X | | | | | | | | | |
| Təhsil Problemləri İnstitutu | | X | X | | | | | | | | | | | | | |
| Keyfiyyət təminatı qurumu | | | | | | | | | | | | | | | X | X |
| TQDK | | | | | | | | | | | | X | X | X | X | X |
| Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | | | | | | | | | | | | | | | | |
| Sahə komissiyaları | | X | X | | | X | | | | | | | | | | |
| Təhsilverənlər | | | | | | | | | | | X | X | X | | X | |
| Sertifikat/diplom verən təşkilatlar | | | | | | | | | | | | | | X | | |

# Əlavə 2. AzKÇ-nin standartlarla zənginləşdirilməsi üzrə tövsiyələr

AzKÇ-nin maraqlı tərəfləri olan qurumlar arasında məsuliyyətlərin düzgün bölgüsünü müəyyən etmək məqsədi ilə matris hazırlanmışdır. Bu matris iki ölçülüdür (Əlavə 1-ə baxın):

- AzKÇ-nin kvalifikasiyalarla zənginləşdirilməsi üçün yerinə yetirilməli olan fəaliyyətlər;
- AzKÇ-nin maraqlı tərəfləri olan qurumlar.

Müəyyən edilən fəaliyyətlər aşağıdakılardır:

- Əmək bazarının və maraqlı tərəflərin ehtiyacları əsasında yeni profillərin müəyyənləşdirilməsi;
- Peşə standartlarının hazırlanması və yenilənməsi;
- Peşə standartları üzrə məsləhətləşmə;
- Peşə standartlarının təsdiq edilməsi;
- Kvalifikasiya standartlarının hazırlanması və yenilənməsi;
- Kvalifikasiya standartları üzrə məsləhətləşmə;
- Kvalifikasiya standartlarının təsdiq edilməsi;
- Kvalifikasiyanın Milli Kvalifikasiyalar Reyestrinə daxil edilməsi;
- Kvalifikasiyalar haqqında məlumatların istifadəçilər və benefisiarlara yayılması;
- Təhsil proqramlarının (kurikulumların) hazırlanması;
- Təhsil və təlim;
- Təlim nəticələrinin qiymətləndirilməsi;
- Təlim nəticələrinin təsbit edilməsi;
- Təhsilalanlara sertifikatların verilməsi;
- Kvalifikasiyaların keyfiyyətinin təmin edilməsi;
- Təhsilverənlərin keyfiyyət təminatı.

AzKÇ-nin maraqlı tərəfləri olan qurumları müəyyənləşdirən zaman ilk növbədə yuxarıda sadalanan fəaliyyətlərin bəzilərini artıq həyata keçirən qurumlar, həmçinin yaradılması nəzərdə tutulan və hüquqi çərçivəsi mövcud olmayan qurumlar sıralanmışdır. Təhlil nəticəsində AzKÇ-nin maraqlı tərəfləri olan aşağıdakı qurumlar müəyyən edilmişdir:

- Təhsil Nazirliyi;
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;
- Sahə nazirlikləri, məsələn, Kənd Təsərrüfatı Nazirliyi;
- Təhsil Problemləri İnstitutu;

- Keyfiyyət təminatı qurumu[5];
- Tələbə Qəbulu üzrə Dövlət Komissiyası;
- Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi;
- Sahə komissiyaları[6];
- Təhsilverənlər;
- Sertifikat/diplom verən təşkilatlar.

Müəyyən edilmiş maraqlı tərəf olan qurumların öhdəsinə düşən əsas fəaliyyətlər aşağıda sadalanmışdır. Bu siyahılarda mövcud hüquqi çərçivəyə əsaslanmayan fəaliyyətlər ulduzla (*) işarələnmişdir və gələcək müzakirələr üçün başlanğıc ola bilər.

**Təhsil Nazirliyi**:

- Yeni kvalifikasiyalara olan ehtiyacların müəyyənləşdirilməsi;
- Ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili, ali təhsil və (qismən) əlavə təhsildə kvalifikasiya standartlarının təsdiq edilməsi[7];
- Kvalifikasiyanın Milli Kvalifikasiyalar Reyestrinə daxil edilməsi;
- Kvalifikasiyalar haqqında məlumatların istifadəçilər və benefisiarlara yayılması;
- Ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili və (qismən) əlavə təhsildə kvalifikasiyaların keyfiyyətinin təmin edilməsi;
- Ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili və (qismən) əlavə təhsildə təhsilverənlərin keyfiyyət təminatı.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**:

- Yeni kvalifikasiyalara olan ehtiyacların müəyyənləşdirilməsi;
- Peşə standartları üzrə məsləhətləşmə;
- Kvalifikasiya standartları üzrə məsləhətləşmə;
- Əlavə təhsildə kvalifikasiya standartlarının (bir hissəsinin) təsdiq edilməsi*;
- Əlavə təhsildə kvalifikasiyaların (bir hissəsinin) keyfiyyətinin təmin edilməsi*;

---

[5] Ali təhsilin inkişafı ilə bağlı bir sıra layihələrdə, xüsusilə Ali təhsildə keyfiyyət təminatı ilə bağlı Standart və Təlimatlarda bu qurum haqqında məlumat verilir.

[6] Bir neçə sahə komissiyası 2010-cu ildən bəri fəaliyyət göstərsə də onların rolu, yaradılması və vəzifələrini tənzimləyən hər hansı hüquqi çərçivə mövcud deyildir.

[7] Təhsil haqqında Qanuna uyğun olaraq, təhsilin pillələri (məsələn, Bakalavr səviyyəsi) üzrə dövlət standartları Nazirlər Kabineti tərəfindən təsdiq edilir. Təhsil Nazirliyi isə bu standartların hazırlanmasını və ixtisaslar (məsələn, ilk peşə-ixtisas təhsili ixtisasları) üzrə standartların təsdiq edilməsini həyata keçirir. Əlavə təhsil üzrə bütün təhsil (kvalifikasiya) standartlarının Təhsil Nazirliyi tərəfindən hazırlanacağının mümkünlüyünü təsəvvür etmək çətindir. Ona görə də bu səlahiyyətin müxtəlif sahə nazirlikləri arasında onların funksiyalarına uyğun bölüşdürülməsi məqsədəuyğun olar. Bunu əlavə təhsildə kvalifikasiyaların və təhsilverənlərin xarici keyfiyyət təminatı məsələsinə də aid etmək lazımdır.

- Əlavə təhsildə təhsilverənlərin (bir hissəsinin) keyfiyyət təminatı*.

**Sahə nazirlikləri**:

- Yeni kvalifikasiyalara olan ehtiyacların müəyyənləşdirilməsi;
- Peşə standartları üzrə məsləhətləşmə;
- Kvalifikasiya standartları üzrə məsləhətləşmə;
- Kvalifikasiya standartlarının təsdiq edilməsi;
- Əlavə təhsildə kvalifikasiya standartlarının (bir hissəsinin) təsdiq edilməsi*;
- Əlavə təhsildə kvalifikasiyaların (bir hissəsinin) keyfiyyətinin təmin edilməsi*;
- Əlavə təhsildə təhsilverənlərin (bir hissəsinin) keyfiyyət təminatı*.

**Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu**:

- Ümumi təhsil, ilk peşə-ixtisas təhsili və orta ixtisas təhsilində kvalifikasiyaların keyfiyyətinin təmin edilməsi;
- Əmək bazarının və maraqlı tərəflərin ehtiyacları əsasında yeni profillərin müəyyənləşdirilməsi*;
- Peşə standartları üzrə məsləhətləşmə;
- Kvalifikasiya standartları üzrə məsləhətləşmə.

**Keyfiyyət təminatı qurumu**:

- Ali təhsildə kvalifikasiyaların keyfiyyətinin təmin edilməsi;
- Ali təhsildə təhsilverənlərin keyfiyyət təminatı;
- İlk peşə və orta ixtisas təhsilində kvalifikasiyaların keyfiyyətinin təmin edilməsi*;
- İlk peşə və orta ixtisas təhsilində təhsilverənlərin keyfiyyət təminatı*.

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası**:

- Tam orta təhsil məzunlarının təlim nəticələrinin qiymətləndirilməsi;
- Tam orta təhsil məzunlarının təlim nəticələrinin təsbit edilməsi;
- Tam orta təhsilin məzunlarına sertifikatların verilməsi.

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi**:

- Peşə standartlarının təsdiq edilməsi[8].

**Sahə komissiyaları**:

- Əmək bazarının təhlili əsasında sektorda yeni kvalifikasiyalara olan ehtiyacların müəyyənləşdirilməsi;
- Sektor üçün peşə standartlarının hazırlanması və yenilənməsi;

[8] Peşə standartları standartlaşma obyekti kimi müəyyən edilmir.

- Sektor üçün peşə standartları üzrə məsləhətləşmə;
- Sektor üçün peşə standartlarının təsdiq edilməsi*;
- Sektor üçün kvalifikasiya standartlarının hazırlanması və yenilənməsi;
- Sektor üçün kvalifikasiya standartları üzrə məsləhətləşmə;
- Sektor üçün kvalifikasiya standartlarının təsdiq edilməsi*.

**Təhsilverənlər**:

- Təhsil proqramlarının (kurikulumların) hazırlanması[9];
- Təhsil və təlim;
- Təlim nəticələrinin qiymətləndirilməsi;
- Təlim nəticələrinin təsbit edilməsi[10];
- Təhsilalanlara sertifikatların verilməsi[11].

**Sertifikat/diplom verən təşkilatlar**:

- Təlim nəticələrinin qiymətləndirilməsi;
- Təhsilalanlara sertifikatların verilməsi.

**Nəticələr**

Əlavə 1-də verilmiş maraqlı tərəflər arasında fəaliyyətlərin bölgüsü Təhsil Nazirlitinin müvafiq şöbə və ya sektorlarının rəhbərliyinin rəylərini əks etdirir. Fəaliyyətlərin düzgün bölgüsü üçün daha geniş müzakirələr aparılmalı, bu müzakirələr zamanı:

- beynəlxalq təcrübə və sazişlər, məsələn, Bolonya prosesi çərçivəsində əldə olunmuş razılaşmalar nəzərə alınmalı;
- maraqlı tərəflər arasında razılıq əldə olunmalıdır.

[9] Təhsilverənlərin bütün növlərinə aid edilə bilməz.

[10] Təhsilverənlərin bütün növlərinə aid edilə bilməz.

[11] Təhsilverənlərin bütün növlərinə aid edilə bilməz.

# Əlavə 3. 2015-2017-ci illərdə həyata keçirilməli olan tədbirlərlə bağlı tövsiyələr

Nazirlər Kabineti tərəfindən qəbul edildikdən sonra, AzKÇ-nin müvafiq kvalifikasiya standartları ilə zənginləşdirilməsi məqsədi ilə 2015-2017-ci illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi təklif olunur. Ümumi təhsil pilləsi standartının, əsasən, məzmun baxımından təkmilləşdirilməli olduğunu və onun hazırlanmasının təhsilin digər pillələri ilə müqayisədə daha asan başa gələcəyini nəzərə alaraq, ilk növbədə bu təhsil pilləsi üzrə standartın hazırlanmasına başlamaq məqsədəuyğun olar. İlk peşə-ixtisas və orta ixtisas təhsili pillələri üzrə dövlət standartlarına 2015-ci ilin aprel ayında, ali təhsil üzrə standarta isə 2016-cı ilin aprel ayında yenidən baxılmalıdır. Bu səbəbdən, Bakalavriat və Magistratura səviyyələri, həmçinin Doktorantura üzrə kvalifikasiya standartlarının hazırlanması 2016-cı ildə başa çatdırılmalıdır. Əlavə təhsil üzrə kvalifikasiya standartlarının hazırlanmasına artıq başlanmışdır və pilot layihələr çərçivəsində əldə olunmuş təcrübədən 2015-ci ildən başlayaraq yeni standartların hazırlanması istifadə oluna bilər.

| **İxtisaslar üzrə təlim nəticələrinə əsaslanan kvalifikasiya standartları** | **AzKÇ səviyyələri** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|
| Əlavə təhsil | 3-8 | X | X | X |
| Doktorantura | 8 | | X | X |
| Magistratura | 7 | | X | |
| Bakalavriat | 6 | | X | |
| Orta ixtisas təhsili | 5 | X | | |
| İlk peşə-ixtisas təhsili | 3 | X | X | X |

Yuxarıda göstərilən tədbirlərin icra edilməsi məqsədi ilə kvalifikasiya standartlarının hazırlanması və həyata keçirilməsi üçün mövcud qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi, həmçinin yeni normativ-hüquqi aktların qəbul edilməsinə ehtiyac var. Bu istiqamətdə ilk addım təhsilin müvafiq pillələri üzrə dövlət standartlarına kvalifikasiya tələbləri (standartları) anlayışının daxil edilməsi ola bilər. Bu, ilk peşə-ixtisas, orta ixtisas və əlavə təhsil standartlarına Nazirlər Kabinetinin müvafiq qərarlarının yenidən baxılması qrafik üzrə nəzərdə tutulmuş 2015-ci ildə, ali təhsil standartına isə 2016-cı ildə edilə bilər. Kvalifikasiya və kvalifikasiya tələbləri anlayışları Təhsil haqqında Qanuna da daxil edilməlidir. Qanuna əlavələrin edilməsinə 2015-ci ildə başlanmalıdır ki, 2017-ci ilədək bunun yekunlaşdırılması mümkün olsun. Təhsil fəaliyyətinin lisenziyalaşdırılması və təhsil müəssisəsinin akkreditasiyası ilə bağlı maddəyə də dəyişikliklər edilməlidir. AzKÇ-nin işlək olması üçün aşağıda göstərilən yeni normativ-hüquqi aktların hazırlanmasına da ehtiyac var.

| | **2015** | **2016** | **2017** |
|---|---|---|---|
| Sahə komissiyaları və peşə standartları üzrə qanunvericilik | X | | |
| Təhsil haqqında Qanuna əlavə və dəyişikliklər | X | X | |
| Kvalifikasiya növləri (təhsilin pillələri) üzrə dövlət standartları | X | X | |
| Keyfiyyət təminatı ilə bağlı qanunvericilik | | X | X |
| Keyfiyyət təminatı ilə məşğul olan müstəqil qurum | X | X | X |
| Əvvəlki təhsilin tanınması ilə bağlı normativ-hüquqi aktlar | | X | |
| Mövcud kvalifikasiyaların AzKÇ ilə uyğunluğu ilə bağlı normativ-hüquqi aktlar | X | | |